


# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament ”Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli ”Azərbaycan marşı” Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

**Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır**

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# QULUZADƏ AMİN





**"İnsanlar uzun müddət misi qızıla çevirmək arzusunda olublar. İndi elm misi elə şeylərə çevirir ki, qızıl ona həsəd aparır".**

***(Tur Xander)***

Dahi şairimiz N.Gəncəvinin təbirincə desək, insan yalnız elmlə, biliklə kiməsə üstün gələ bilər. Elm bizim sahib ola biləcəyimiz ən qiymətli xəzinədir. Bu xəzinəni qoruyub saxlamaq özümüzdən asılıdır. Buna da yalnız möhkəm iradə ilə nail ola bilərik.

Gələcəkdə hansı peşəni seçəcəyimizdən, hansı işin sahibi olacağımızdan asılı olmayaraq, həmin peşənin elminə yiyələnsək, o sahədə daha uğurlu olacağıq, daha özünəinamlı olacaq. Haqqında söhbət açacağımız növbəti qəhrəmanımız da öz üzərində səylə çalışan, aktiv şagirdlərimizdəndir. Amin haqqında ümumi məlumata keçməzdən öncə onun ağıllı və savada maraqlı olmasını oxucuların diqqətinə çatdırmağı özümüzə borc bildik.

Quluzadə Amin Əli oğlu 2010-cu il 21 aprel tarixində Sabirabad rayonunun Ətcələr kəndində anadan olub. 2016-cı ildə məktəb həyatına ilk dəfə qədəm qoymuşdur. Hal-hazırda isə Ətcələr kənd tam orta məktəbinin 3a sinfində təhsil alır. Sevimli fənləri ana dili və riyaziyyatdır. O doğma ana dilinə çox bağlıdır və riyaziyyatı isə elmlərin şahı bilir. Sinif müəllimi Mikayılova Aynurə xanım Aminin sevimli müəllimi olmaqla, həm də onda bir analıq qayğısı, rəftarı görür. Amin boş vaxtlarında şəkil çəkir, kitab oxuyur, dərsləri ilə məşğul olur, dostları ilə futbol oynayır. Onun üçün təkrar biliyin anasıdır, nə qədər oxusan, bir o qədər bilikli olarsan şüarına dəstəkdir. Futbol isə ən sevimli idam oyunudur. Ailəsi də balaca Amini bu cür müsbət keyfiyyətlərinə görə dəstəkləyir və ona uğurlar arzulayırlar.

Atası Quluyev Əli Allahverdi oğlu 1976-cı il iyulun 16-da Sabirabadın Ətcələr kəndində anadan olub, orta təhsillidir, anası Quluyeva Aynurə Palıd qızı 1988-cı il dekabrın 31-də Sabirabad şəhərində anadan olub, orta təhsillidir. Hər ikisi fərdi təsərrüfat işi ilə məşğuldur, sadə kənd zəhmətkeşləridir. Aminin Fidan adında bir bacısı var. 2014-cü il yanvarın 22-də anadan olub. Onun 5 yaşı var. Amin bacısını çox sevir, onunla mehriban davranır.

Qəhrəmanımız idmana böyük maraq göstərir. İdmana həvəsli olduğu qədər də çalışqandır. Bununla əlaqədar olaraq, yalnız idmanla məşğul olmaqla kifayətlənməyib dərslərini də yaxşı oxuyan Amin nümunəvi şagirddir. O, gələcəkdə ya polis, ya da həkim olmaq arzusundadır. İdmançı olmağı da ona polis, ya da həkim işində köməyi dəyər deyə düşünürük. Çünki həkimlər sağlamlığa ciddi fikir verirlər.

Sonda dərgimiz adından seçdiyi bu yolda Aminə uğurlar arzulayırıq. Ümid edirik ki, seçdiyi peşənin sahibi olaraq, üzərinə düşən vəzifəni şərəflə yerinə yetirəcəkdir.



# NAĞDALIYEVA RƏQSANƏ





**"Nə qədər ki yaşayırsan - öyrən, gözləmə, qocalıq gələndə sənə kamal gətirəcək."**
**(Salon)**

Kitab bilik mənbəyi, qiymətli əvəzolunmaz bir xəzinədir.Yer üzündə minlərlə kitab mövcuddur. Hansı ki, bu kitablar vasitəsilə bir çox insanlar savad, bilik, elm əldə edirlər. Müdrik insan bütün tərbiyə vasitələrindən səmərəli istifadə etməyi məsləhət görürdü. Qəhrəmanımız Rəqsanə də müəllimlərin öyüd və nəsihətlərini dinləyir, dövrün tələbi ilə ayaqlaşır.Arzularını reallaşdırmaq üçün müəllimləri tərəfindən verilən tapşırıqları əzmlə yerinə yetirir.

Rəqsanə İlqar qızı Nağdalıyeva 2002-ci il fevralın 5-də Sabirabad rayonunun Qaragüney kəndində anadan olub. Hazırda Sabirabad rayonu Qaragüney kəndi 1 saylı tam orta məktəbində 10-cu sinifdə oxuyur. Orta məktəb dərslərini yaxşı oxuyan Rəqsanənin ən sevimli fənni tarixdir. Odur ki, o, tarixlə, müxtəlif ölkələrin tarixi keçmişi, bu günü ilə ciddi maraqlanır, bu mövzuda araşdırma materiallarını oxuyaraq məlumatlanır. Sevimli müəllimləri Həmid müəllim, Ceyhun müəllim, Gülər müəllimdir. Rəqsanənin ən böyük arzusu diplomat olmaqdır. Bu yolda o məsuliyyətlə çalışır.

Müsahibimizin təhsil sahəsində bir sıra uğur və nailiyyətləri vardır. İntonasiyalı şeir demək qabiliyyəti olan Rəqsanə məktəbdə keçirilən şeir müsabiqəsində birinci yer tutmuşdur.O, həmçinin məktəb olimpiadalarında iştirak edərək yaxşı göstəricilər əldə edib.

Rəqsanə boş vaxtlarında musiqi dinləməyi və idmanla məşğul olmağı çox sevir.

Atası Nağdalıyev İlqar 1965 ci ilin iyunun 21-də Bakı şəhərində özəl şirkət işçisi kimi çalışır. Anası Nağdalıyeva Nurəngiz 1979-cu ildə anadan olub, evdar qadındır. Həmsöhbətimizin bir bacısı, bir qardaşı vardır. Qardaşı Nağdalıyev Nağdalı FHN-də işləyir. O, 1993-cü il iyun ayının 12-də anadan olub. Bacısı Bədəlova Sürmə DMX-da baş məsləhətçi kimi işləyib, hazırda evdar xanımdır, ailəlidir.

Bir diplomat kimi tarixin yaddaşında yaşamağı Rəqsanə də arzulayır. Nüfuzlu diplomat olaraq həyatda özünə layiqli yer tutub, tarixin səhifələrində yaşamaq Rəqsanənin ən böyük arzularındandır. Biz də jurnalımız adından Rəqsanəyə bu yolda bol səbr, iradə və bilik arzu edirik.







# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləməyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçəklənməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətləndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.

# ƏLİYEV ƏLİ





**”Dahi insan bəşəriyyət kitabının sərlövhəsi-dir”**

***(Hebber )***

Hər kəs ilk öncə xalqına, insanlara xidmət etməlidir. İnsan özünü reallışdırmaq üçün daim inkişaf etməlidir. İnsanı daim inkşaf etdirən, onu irəli aparan onun arzularıdır. Əli də öz arzularını reallaşdırmaq üçün daim irəliyə doğru addımlayır.

Əli Elbaris oğlu Əliyev 11 mart 2008-ci ildə Gəncə şəhərində anadan olub. Oğuz rayonunun Sincan kəndində 2-ci sinfə qədər oxuyub. Hal-hazırda Bakı şəhəri 15 saylı tam orta məktəbin 5-ci sinifində təhsilini davam etdirir. Əli dərslərini çox yaxşı oxuyur. Ən çox sevdiyi dərslər Azərbaycan dili və tarix dərsləridir.Həmsöhbətimiz müəllimlər arasında fərq qoymur, bütün müəllimlərinə böyük hörməti və sayğısı var. Əli gələcək planlarında bir az qərarsızdır. O, cərrah və ya polis olmaq istəyir. Əli deyir ki, həkim olub, bütün xəstələri sağaldacaq. Bir də polis olmaq istəyən Əli vicdanla bu peşəni icra edəcəyinə söz verib. Yəni hər halda vicdanlı, savadlı olandan sonra qazanan peşə olacaq.

Əli Oğuz rayonunda oxuyarkən, “Aşırı Oğuz yurdu” qəzetində şəkilləri çap olunmuşdur.

Əli, boş vatlarında nağıl kitabları oxumağı və idmanla məşğul olmağı çox sevir.

Müsahibimizin atası Əliyev Elbaris Əli oğlu 1985-ci ildə Göyçə mahalında doğulub. Anası Əliyeva Səfa Şirin qızı 1988-ci ildə Oğuz rayonunun Sincan kəndində doğulub. Əli balaca olsa da, valideynlərinin əziyyətini itirmir. Onlara borclu olduğunu bildirir.

Ailədə 4 uşaqdırlar; bir bacısı, iki qardaşı var. Bacısı Əliyeva Fatimə 1-ci sinifdə oxuyur. Ortancıl qardaşı Nurlan üçüncü sinifdə oxuyur. Balaca qardaşının üç yaşı var. Onun adı Xəyaldır.

Əli evin ilk sevinci olub. Onun adını atası, babasının adını yaşatmaq üçün ona adını qoyub. Babasının adını yaşadan nəvə onun adına layiq oğul da olmaq istəyir.

Biz də jurnalımız adından balaca qəhrəmanımıza səadət dolu bir gələcək arzulayırıq. Valideynlərinin və müəllimlərinin fəxri olmağını diləyirik!










# ƏLİYEV NURLAN





**"Çalış öz dövrənə həmişə əxlaq, namus, qeyrət hasarı çək"**

***(M.Əvhədi)***

Hər kəsin şirin arzuları, gözəl xəyalları vardır. Bunu nəzərə alan pedaqoqlar, yeniyetməlik dövrünü coşğun çaya, dənizə bənzətmişlər. Hər bir valideyn övladının mərifətli, ədəbli, xoşbəxt olması üçün əlindən gələn hər şeyi edir. Müəllimi də bu şah əsərin formalaşmasında öz xidmətlərini göstərir. Jurnalımızın növbəti qəhrəmanı olan Nurlanın da valideynləri və müəllimləri övladlarına, şagirdlərinə qayğı ilə yanaşırlar.

Nurlan Elbaris oğlu Əliyev 26 avqust 2009-cu ildə Gəncə şəhərində doğulmuşdur. Hazırda Bakı şəhəri 15 saylı tam orta məktəbin 3-cü sinfində təhsil alır. Nurlan, dərslərinə böyük maraq göstərir. O daha çox ana dili və riyaziyyat fənlərini, Elza, Zəminə, Səda və Şiraslan adlı müəllimlərini çox sevir.

Nurlan qardaşı Əli kimi peşə seçimində qərarsız deyil. Gələcəkdə həkim olmaq arzusundadır. Nurlan insanları sağlam görmək istəyir. Savadlı həkim olub, insanları sağaltmaq, xəstə və imkansız insanlara öz şəfalı əlləri ilə tibbi yardım göstərmək onun ən ümdə arzusudur. Buna görə də bütün dərslərini səylə oxuyur. Həmsöhbətimizin müəllimləri Nurlandan çox razıdırlar. O, həm tərbiyəsi, həm də savadına görə həmişə öndədir.

Nurlan, boş vaxtlarında kitab oxuyur, şəkil çəkir. Müsahibimizin ailəsi 6 nəfərdən ibarətdir. Atası Əliyev Elbaris Əli oğlu 1985-ci ildə Göyçə mahalında doğulub. Anası Əliyeva Səfa Şirin qızı 1988-ci ildə Oğuz rayonunun Sincan kəndində doğulub. Böyük qardaşı Əli 5-ci sinifdə oxuyur. Balaca bacısı Fatimə isə 1-ci sinifdə oxuyur. Nurlanın Xəyal adında 3 yaşında bir balaca qardaşı da var.

Nurlan dərsdən əlavə, ev işlərində valideynlərinə kömək edir. Nurlanın adını Fariz əmisi qoyub. O, ailəsinin və qohumlarının sevimlisidir. Hər kəs onun taleyini uğurlu və faydalı görmək istəyir.

Biz də jurnalımız adından nur üzlü Nurlan balamıza can sağlığı, bütün istəklərininin reallaşmasını arzu edirik!



# ƏSƏDOV GÜLAĞA






**"Yer üzündə ən böyük varlıq insandır, insanda isə ən qiymətli şey müdriklikdir"**

***(A.Hamilton)***

İlk dəfə ayaq basdığımız təhsil ocağında bizə ən yaxın məsləhətçi müəllimlər olur. Müəllim həyatın öyrənilməsində vətənimizin parlaq gələcəyi üçün savadlı, vətənpərvər şəxslərin yetişdirilməsində müəllimlərin və valideynlərin rolu danılmazdır. Bəzi şagirdlər vardır ki, məktəbə qədəm qoyduğu ilk gündən müəllimlərinin sevimlisi olur. Gülağa da belə şagirdlərdəndir.

Əsədov Gülağa Qismət oğlu 2012-ci il iyulun 4-də Sabirabad rayonunun Kürkənd kəndində dünyaya gəlib. Hal-hazırda Sabirabad rayon N.Nərimanov adına 2№li məktəb-liseyinin 1a sinfində təhsil alır. Yaşının az olmasına baxmayaraq, Gülağa balamız vətənə, torpağına bağlı biridir. Öz ölkəsini, ana vətənini çox sevir, onun üçün canından belə keçməyə hazırdır. Odur ki, balaca Gülağa hansı peşədə olursa olsun öz sənətinin "əsgər"i olmaq, onu layiqincə yerinə yetirmək istəyir. O, hərbiçi olmaq niyyətindədir.

O, dərslərində əlaçıdır, bütün fənləri çox yaxşı oxuyur. Daima öz üzərində çalışan Gülağa "Dərslərində fərqləndiyinə görə"- tərifnamə ilə, məktəbəqədər hazırlıq qrupunda "Məntiqi və riyazi təfəkkürün inkişafı", "Təsviri fəaliyyət", "Savad təliminə hazırlıq və nitq inkşafı" bölmələrinin tapşırıqlarını uğurla yerinə yetirərək, ilkin bilik və bacarıqlara yiyələndiyi üçün diplomlarla təltif olunmuşdur. Gülağa daha çox riyaziyyat fənnini və Seyidxanım müəllimini çox sevir.

Gülağa həmçinin, nənəsinin sevimli nəvəsidir. Boş vaxtlarını səmərəli keçirmək istəyən Gülağa, həkim nənəsinə kömək edir.

Atası Əsədov Qismət 1985-ci il sentyabrın 21-də Sabirabad rayonunda anadan olub. Anası Əsədova Samirə 1986-cı ildə sentyabrın 9-da Sabirabad rayonunda doğulub. Valideynləri Gülağa ilə fəxr edirlər. Həmsöhbətimizin bir bacısı vardır. Gülağanın Əsədova Sevil adında balaca bacısı 5 yaşındadır və o, qardaşını çox istəyir.

Təhsildəki uğurlarına görə valideynlərinə və müəllimlərinə minnətdar olan Gülağaya gələcək həyatında uğurlar arzu edirik. Vətənpərvər balamız olan Gülağaya jurnalımız adından bütün arzularına çatmağı və daim xoşbəxt olmağı arzulayırıq.





# ƏKBƏROV MİRZƏ







**"Nə qədər çox oxusan, başqalarına az oxşayarsan".**

***(Jül Renar)***

İnsan gərək bütün ömrü boyu maariflənsin. Çünki kitab insan təfəkkürünün yorulmayan qanadları, bilik mənbəyidir. Bütün elmlərin bünövrəsi təhsillə qoyulur. Elmin hüdudları üfüqü xatırladır: nə qədər yaxınlaşırsansa, o qədər uzağa çəkilir. Həqiqətən elm dəryası dərindir və elmi öyrəndikcə ona çatmaq əvəzinə daha da uzaq düşürsən. Yəni elm ancaq davamlı araşdırma və təhlillər aparılmasını tələb edir ki, bu da hər bir gəncin, yeni nəslin öhdəsinə düşən vacib əməllərdən biridir. Çünki 21-ci əsr elm və texnologiyanın ən üst inkişaf mərhələsində yaşayırıqsa, mütləq onda baş verən elmi nailiyyətlərin əldə olunmasında vasitəçi və istifadəçisi olmalıyıq. Yəni indiki dövrdə böyük rəqabətin hökm sürdüyü zamanda təhsilli, yaxud təhsilsiz kimi insanlar arasında dərin fərqlərin yaranması qaçılmazdır.

Haqqında söhbət açacağımız oğlan məktəblilərimizdən biri də Mirzə Şamxal oğlu Ələkbərovdur. O, 18 avqust 2008-ci ildə Gəncə şəhərində anadan olub. Onun adını atası qoymuşdur. 2014-cü ildə Laçın rayonu 15 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olunub. Hal-hazırda həmin məktəbin 4-cü sinfində oxuyur.

Mirzə dərslərində çox fəaldır. Ən çox riyaziyyat fənnini, Aytən və Zəminə müəllimlərini sevir. Dərslərini səylə oxuyan Mirzə, böyüyəndə polis olmağı arzu edir. Müsahibimiz düşünür ki, hal-hazırda vicdanlı polislərə ehtiyac var.

Boş vaxtlarında kompyuterlə və telefonla oynamağı xoşlayır. Valideynlərinə kömək edir. Həmsöhbətimizin ailəsi beş nəfərdən ibarətdir. Atası Əkbərov Şamxal Vaqif oğlu 1985-ci il yanvarın 15-də Gəncə şəhərində anadan olub, orta təhsillidir, sürücü işləyir. Anası Əkbərova Samirə Səfər qızı 7 noybar 1989-cu ildə Gəncədə anadan olub, orta təhsilli evdar xanımdır.

Mirzənin 2 bacısı var. 2009-cu il təvəllüdlü Əkbərova Selcan və 2014-cü il təvvəllüdlü Əkbərova Səidə. Hazırda Selcanın 10 yaşı, Səidənin 5 yaşı var. Mirzə bacıları ilə çox mehribandır və onları çox sevir. Bildiklərini daim onlara öyrədir və onları qoruyur.

Biz də jurnalımız adından balaca qəhrəmanımıza həyat yolunun daim işıqlı olmağını arzu edirik. Qoy qəlbindəki bütün istəklərin vaxtında yerinə yetsin və heç bir zaman peşmançılıq yaşamayasan!



# İMANOV ELMAN





**“Kimliyindən asılı olmayaraq, insan alın təri ilə çalışmalıdır. Çünki onun xoşbəxtliyi məhz əməkdədir”**

***(A.P.Çexov)***

Hər bir kəs əməyi ilə cəmiyyətin və vətəninin inkşafında öz töhvəsini bəxş etməlidir. Əmək insan həyatının ayrılmaz hissəsidir. Bacarıqlı əllər, təcrübə və inam olmadan işə başlamaq mümkün deyil. Buna görə də bizim bugünkü işimiz yaxşı oxumaqdır. Bu iş, vətənin çiçəklənməsi yolunda bəxş edə biləcəyimiz kiçik bir zərrədir. Lakin hər bir şagirdin bəxş etdiyi balaca bir zərrə o biri zərrə ilə birləşir və nəhayət, böyük bir dənizə çevrilir. Atalar demişkən: “ Dama-dama göl olar”. Həmsöhbətimiz Elman da həmin elm dəryasının zərrəsində payı olan şagirdlərdəndir.

İmanov Elman Eldar oğlu 2007-ci il noyabrın 10-da Sabirabad rayonunun Qaratəpə kəndində anadan olmuşdur. 2014-cü ildə birinci sinfə gedən Elman hazırda Osman Mirzəyev adına Qaratəpə kənd tam orta məktəbinin 5a sinifində təhsilini davam etdirir. Həmsöhbətimiz dərslərində çalışqandır və sinfinin yaxşı və əla oxuyan şagirdlərindəndir.

Sevimli fənləri Azərbaycan dili, ədəbiyyat, riyaziyyat, ingilis dili olan Elman bütün müəllimlərini sevsə də, daha çox Tahirə və Gülşən adlı müəllimlərinə xüsusi rəğbət bəsləyir. Asudə vaxtlarını kitab oxumaqla keçirir, boş vaxt tapan kimi, xüsusilə yay və tətil mövsümündə Sabirabad Olimpia mərkəzinə gedir orada boks və üzgüçülüklə məşğul olur. O, uğur və nailiyyətlərinə məktəb nəzdində təşkil olunan bilik yarışmalarında və sınaq imtahanlarındakı aktiv iştirakını qeyd edib ki, bu yarış və imtahanlarda o, yaxşı bal toplayaraq müəyyən səviyyədə öz bilik və bacarıqlarını artırır.

Elmangilin ailəsi 4 nəfərdən ibarətdir. Atası İmanov Eldar Əlverdi oğlu ali təhsilli mühəndisdir. Hazırda fərdi kənd təsərrüfatı üzrə çalışır. Anası İmanova Aminə Ədalət qızı 1973-cü il fevralın 21-də anadan olub, orta təhsilli, evdar xanımdır. Qəhrəmanımız qardaşı İmanla da çox mehribandır və qardaşı İmanın 24 yaşı var, hərbiçidir. O özü də qardaşı kimi gələcəkdə hərbiçi olmaq arzusundadır.

Sonda dərgimiz adından Elmana istəklərinin gerçəkləşməsi diləyi ilə uğurlar arzulayırıq. Ümid edirik ki, doğma torpağımızın keşiyində hünərlə duran igid əsgərlərimizdən olacaq və vətən də öz igid oğlu ilə fəxr edəcəkdir.



# AĞAZADƏ LALƏ







**”İdmanın bədənə göstərdiyi təsiri, kitab beyinə göstərir”**

***E.Haut***

Təbiətdə mövcud olan digər canlılardan fərqli olaraq, insan yeganə varlıqdır ki, məqsədinə çatmaq üçün əzmlə çalışır, cəmiyyətin tərəqqisi və inkişafı yolunda özünü doğrultmağa çalışır. Bütün bunlar insanın necə yüksək mövqedə durduğunun bariz nümunəsidir. Xüsusilə müxtəlif əsr və dönəmlərdə insan övaldının elm-bilik sahəsində etdiyi kəşflər, yeniliklər bütün dünyanın tərəqqisinə xidmət edəcək əsas faktlardır. Elm, bilik insanın insana ötürdüyü ən gözəl vərəsə, xəzinədir. Gərək bu xəzinə daim ötürülə və ondan faydalananların sayı artırıla.

Müsahibimiz Lalə də üzərinə düşən bu çətin və şərəfli təhsil işinin üzərində daima çalışır, orta təhsil illərində hər şeylə maraqlanır.

Ağazadə Lalə Vüqar qızı 4 noyabr 2008-ci ildə Tərtər rayonunun Səhləbad kəndində dünyaya göz açıb. 2014-cü ildə Kəlbəcər rayon 84 saylı tam orta məktəbə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Lələnin qəlbində özünə əbədi yer tapan müəllimləri də var ki, bunlar Ə.Ülviyyə, H.Aygün, A.Raisə, S.Elnur adlı müəllimlədir. Lalə, həmçinin, Azərbaycan dili, ingilis dili, musiqi, təsviri incəsənət fənlərini çox sevir.

Lalə məktəbə, müəllimlərinə o qədər bağlı bir qızdır ki, böyüyəndə o da müəllim olub, şagirdlərinə bilik, elm öyrətmək istəyir. Lalənin uğurları bitib tükənmir. O, təhsil sahəsində bir sıra uğurlara imza atıb, ”Diplom” ilə mükafatlandırılıb. Bu mükafat ona təhsil sahəsində əldə etdiyi biliklərinin ümumi dəyərələndirilməsi münasibəti ilə verilib. Lalə boş vaxtlarında rəsm çəkməyi, musiqi dinləməyi çox sevir, mütaliə etməyi də özünə əsas məşğuliyyət seçib desək yanılmarıq. O, daim oxuyur, öyrənir və nitqini püxtələşdirib, xəyal dünyasını zənginləşdirir.

Laləgilin ailəsi 6 nəfərdən ibarətdir. Atası 1979-cu ilin aprelin 4-də Tərtər rayonunun Səhləbad kəndində anadan olub. Anası Ağayeva Fəridə Arif qızı 1990-ci ilin noyabrın 21-də Tərtər rayonunun Səhləbad kəndində anadan olub. Lalə 3 qardaşın bir bacısıdır. Qardaşları Rəhim, İsmayıl və Məhərrəm onu çox sevir və əziz bacı olaraq daim hörmətin saxlayır, qeydinə qalırlar.

Sonda redaksiyamız adından gül kimi gözəl olan Laləyə uğurlu gələcək arzulayırıq. O gözəl, dərin mənalı gözlərin həmişə gülsün deyirik. Bir ömür əldə edib, edəcəyin uğurlarınla valideyn və müəllimlərinin fəxri olasan!



# AĞAZADƏ RƏHİM





**”Elm sərkərdə, təcrübə isə onun əsgəridir”**
***(L.D.Vinçi)***

Xalqın ümidi, vətənin qüdrəti gəncliyimizdədir. Bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması əsas şərtdir. Gəncliyimizi necə, harda, hansı şəraitdə keçirməyimiz gələcəyimiz üçün əsas özül rolunu oynayır. Bunun üçün hər bir gənc, zamanını boş keçirməməli, millətinə, vətəninə xeyirli övlad olmağı bacarmalıdır. Vaxtını boş keçirməyən, hələ balaca olsa da vətəni üçün layiqli övlad olacağına söz verən Rəhim də belə məktəblilərimizdəndir.

Ağazadə Rəhim Vüqar oğlu 2007-ci il sentyabrın 18-də Tərtər rayonu, Səhləbad kəndində dünyaya gəlib. Gəlişi ilə valideynlərinə özü boyda sevinc gətirib, ailənin fəxri olub.

Hal-hazırda Kəlbəcər rayon 84 nömrəli tam orta məktəbin 5-ci sinifində oxuyur. Dərslərdə həmişə fəal və öz bilik və bacarıq imkanları ilə aktivdir. Ən sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat, ingilis dilidir. Təsadüfi deyil ki, təhsili üzrə bir neçə uğurlara da imza atıb balaca qəhrəmanımız. O, sınaq imtahanlarında göstərdiyi yüksək ballara görə 4 ”Diplom”la təltif olunmuşdur.

Ən sevdiyi müəllimləri- Səlimov Elnur, Hüseynova Aygün, Əmiranova Ülviyyə, Abbasova Raisədir adlı müəllimləridir. Qəhrəmanımız məktəbə, dərslərinə böyük maraq göstərsə də əlavə olaraq, boş vaxtlarında rəsm çəkməyi, oyun oynamağı çox sevir. O daim dəstəyi ailəsindən görür və valideynləri ilə qürur duyur.

Ailədə 6 nəfərdən ibarətdirlər. Onun 2 yaşında Ağazadə Məhərrəm və 9 yaşında Ağazadə İsmayıl adında iki qardaşı və Ağazadə Lalə adında bir bacısı var. Atası Ağayev Vüqar 1979-cu ilin aprelin 4-də Tərtər rayonunun Səhləbad kəndində doğulub, kiçik biznes ilə məşğul olur. Anası Ağayeva Fəridə Arif qızı 1990-cı ilin noyabrın 21-də Tərtərin Səhləbad kəndində doğulub, evdar qadındır.

Hər iki valideynin ən böyük arzusu övladlarının parlaq gələcəyə sahib olmasıdır.

Sonda Rəhimə jurnalımız adından uğur dolu həyat arzu edirik. Hansı peşədə olmasından asılı olmayaraq, işinin peşəkarı və vətəninə layiqli övlad olasan!





# HƏSƏNLİ TALEH





**”Əmək bəşəriyyət tarixinin lap əvvəlindən yer üzərinə işıq saçan müqəddəs şamdır, onu söndürsəniz, hər yer zülmətə çevrilər”.**
***(Konstantin Uşinski)***

Əmək insan həyatının, onun sağlamlığının və firavan yaşayışının birinci və əsas şərtidir. Xoşbəxtliyin açarı zəhmətdə, alın tərindədir. Səadətə, xoş günlərə gedən yol yalnız əmək cəbhəsindən keçir. Əmək insanı ucaldır, onu şöhrətləndirir.

Bəziləri əmək, zəhmət dedikdə, elə fikirləşirlər ki, bu yalnız fiziki işdir. Lakin zehni işlə məşğul olan tədqiqatçılarımızı, elmin yüksək zirvələrini fəth edən alimlərimizi, bədii yaradıcılıq sahəsində çalışan yazıçı və şairlərimizi, bəstəkarlarımızı, rəssamlarımızı və başqalarını da unutmaq olmaz. Biz ilk dəfə zehni əməklə məktəbdə məşğul oluruq. Öz üzərimizdə nə qədər çalışsaq, nə qədər çox oxusaq, mütləq ki, bəhrəsini də görəcəyik. Haqqında bəhs edəcəyimiz həmsöhbətimiz Taleh çalışqan şagirdlərdəndir.

Həsənli Taleh Teymur oğlu 2010-cu il iyunun 21-də anadan olub. Sabirabad rayonunun Nəsimi kəndində anadan olmuşdur. 2016-cı ildə Rəsul Əhmədov adına Nəsimi kənd tam orta məktəbinə qədəm qoyan Taleh, hal-hazırda 3ª sinfində təhsil alır. Dərslərində aktiv olan qəhrəmanımızın sevimli fənləri Azərbaycan dili və texnologiyadır. Araz və Qızılgül adlı müəllimləri də ən sevimli pedaqoqlarıdır.

Talehgilin ailəsi 5 nəfərdən ibarətdir: anası, atası, iki bacısı və Taleh. Atası Həsənov Teymur orta təhsilli, kənd təsərrüfatı işçisi, torpaq zəhmətkeşidir. Anası Alışanova Ziyafət Seyfulla qızı da orta təhsilli, kənd təsərrüfatı zəhmətkeşidir. Böyük bacısı İlahə Həsənova 7-ci , kiçik bacısı Zöhrə Həsənova isə 5-ci sinifdə oxuyur. Taleh bacıları ilə çox mehribandır, onları çox sevir. Bacılar da qardaşı ilə fəxr edir. Taleh boş vaxtlarını dərsləri ilə məşğul olaraq səmərəli keçirir. O, gələcəkdə musiqiçi olmaq arzusundadır.

Sonda jurnalımız adından ona uğurlar arzulayırıq və ümidvarıq ki, gələcəkdə hansı peşənin sahibi olursa olsun, yüksək nailiyyətlər əldə edəcəkdir. Bu enişli-yoxuşlu həyat yolunda daim mətnli, iradəli, təmkinli, mübariz olman diləyi ilə!












əlvan boyalarla möcüzəvi tablolar yaradır.Gələcək peşəsini seçən Səma bu məşğuliyyətini davam etdirmək və rəssam olmaq istəyir.

Səmanın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Zülfüqarlı Şahin Nizami oğlu 26 fevral 1977-ci ildə Laçın rayonunda anadan olub.

Hazırda tikinti şirkətində işləyir.

Zəhmətkeş və nümunəvi ailə başçısı övladlarının yaxşı təhsil alması üçün əlindən gələni əsirgəmir.

Anası Rzayeva Vüsalə Ümid qızı 12 iyul 1980-ci ildə Laçın rayonunda anadan olub. Hazırda Laçın rayonunda 6 nömrəli məktəbdə fizika müəllimi işləyir.

Bacısı Zülfüqarlı Pəri Şahin qızı 11 sentyabr 2005-ci ildə Bakı şəhərində anadan olub. O, 8-ci sinif şagirdidir. O da dərslərini əla qiymətlərlə oxuyan əlaçılardandır.

Biz də redaksiyamız adından Səma balamıza uğurlar arzulayırıq. Hər zaman uğurları ilə ailəsinin başını uca eləsin.

Təhsil həyatı onu daha da zirvələrə qaldırsın.







# ABBASZADƏ ÜMİD









**"Hər kəs mənə bir hərf öyrətsə, ona qul olaram"**

***(Məhəmməd Peyğəmbər)***

Dahilərdən belə bir deyim var ki, hər bir insan tək tərbiyə verən yox, həm də özünün tərbiyəçisi olmağı bacarmalıdır. İnsan daim irəli getməli, biliyə can atmalıdır. Çünki yaşadığımız 21-ci əsr elm-texnologiya əsri, elmi inqilabların sürətlə baş verdiyi əsrdir. Belə bir dövrün insanı olub da öyrənmədən, daim mütaliə etmədən yaşamaq çox çətindir. İndiki gənc nəslin qarşısına əsas məqsəd olaraq qoyub özünə əsas örnək götürəcəyi məqsəd də bu olmalıdır. Jurnalda haqqında söhbət açacağımız növbəti qəhrəmanımız Ümid də öz yaşıdlarına elmi biliyi ilə nümunə olacaq məktəblilərimizdəndir.

Ümid Abbaszadə Xəyal oğlu 2009-cu il iyulun 8-də Sumqayıt şəhərində dünyaya gəlib. 2015-ci ildə 1-ci sinfə gedən Ümid, buna görə çox sevincli olub. Axı ilk dərs günü məktəb əziz və maraqlı olur birincilər üçün. Dərslərinə böyük maraq göstərən həmsöhbətimiz, hal-hazırda Sabirabad rayon Nizami Gəncəvi adına 5 saylı tam orta məktəbin 4ç sinifində oxuyur. Ümid böyüyəndə Polis Akademiyasına daxil olub təhsil alaraq ləyaqətli polis işçisi olmaq arzusundadır. Ona görə də dərslərini çox yaxşı oxuyur. Onun sevdiyi fənlər Azərbaycan dili və riyaziyyat fənləridir. Sevdiyi müəllimi isə Seyid, Günel müəllimdir.

Ümid əlaçı olması ilə yanaşı bir sıra uğur və nailiyyətlər də əldə edib. O, məktəbdə keçirilən bilik imtahanında iştirak edərək birinci yerə layiq görülmüşdür. Bundan əlavə, sınaq imtahanlarında göstərdiyi nəticəyə görə "Təşəkkürnamə" və "Fəxri Fərman" ilə təltif olunmuşdur. Həmsöhbətimiz boş vaxtlarında mənəvi dünyasını qidalandırmaq üçün musiqi dinləyir, dünyagörüşünü genişləndirmək üçün dərsdən əlavə kitablar oxuyur.

Qəhrəmanımızın ailəsi də daim onu dəstəkləyir və valideynləri istəyir ki, Ümidin gələcəyi uğurlu olsun. Ailəsi 4 nəfərdən ibarətdir. Atası Abbasov Xəyal sürücüdür. Bir ata kimi hər iki övladının parlaq gələcəyi naminə çalışır. Anası Abbasova Arzu evdar qadındır. Övladlarının təhsil və tərbiyəsi ilə ciddi məşğul olur. Ümidin Abbaszadə Yusif adında 11 yaşında bir qardaşı da var. O da dərslərində əlaçıdır.

Biz də Ümidə jurnalımız adından uğur arzu edirik. Fəxr edirik ki, Azərbaycanda sənin kimi övladlar yetişir. Arzu edirik ki, gələcək uğur və nailiyyətlərinlə bir ömür valideyn və müəllimlərinin fəxri olasan!

# HÜSEYNLİ AYAN







**”Xoşbəxtliyə nail olmağın yeganə vasitəsi, bilikdir, maarifdir, müdriklikdir”**

***(K.A.Helvetsi)***

Dünyada elmin bəhrəsini görmək insan üçün böyük nemətdir. Biz övladlarımızın hər biri üzərində ciddi çalışmalı, onların hər sahədə inkşafını təmin etməliyik. Çünki onlar bizim gələcəyimizdir. Gələcək isə bizdən elmli, savadlı, insan tələb edir.Gələcəyimizi inkşaf etdirmək üçün hər birimiz səylə çalışmalıyıq Həmsöhbətimiz Ayan da gələcəyi uğurlu olan balalarımızdan biridir.

Ayan Nəsimi qızı Hüseynli 14 oktyabr 2011-ci ildə Sabirabad rayonunun Nəsimi kəndində zəhmətkeş bir ailədə anadan olub. 2017-ci ilin 15 sentyabrında Sabirabad rayonunun R.Əhmədov adına Nəsimi kənd tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinifində oxuyan Ayan, gələcəkdə həkim olmaq arzusu ilə yaşayır. Xəstə insanlara şəfanın çox vacib olması səbəbindən həkimlərin məsuliyyətini başa düşərək, savadlı həkim olmaqla hər xəstəni müalicə etmək, öz şəfalı əlləri ilə tibbi yardımını etmək istəyir. Ayan bu sənəti çox sevir, istəyinə çatmaq üçün dərslərini yaxşı oxuyur, biliyini artırır. Bütün fənləri və müəllimlərini sevərək dərslərdə aktiv iştirak edir.

Ayangilin ailəsi 4 nəfərdən ibarətdir. Atası Hüseynov Nəsimi 1976 -cı ilin iyunun 8-də Sabirabad rayonunun Nəsimi kəndində anadan olmuşdur. Ali təhsillidir, hal-hazırda fərdi sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Anası Hüseynova Sürəyya Abbas qızı 1986-cı il dekabrın 2-də Sabirabad rayonunun Surxay kəndində anadan olub. Orta ixtisas təhsillidir, hal-hazırda işləmir. Ayanın bacısı Hüseynli Nihan Nəsimi qızı 2016-cı ilin iyulun 2-də Bakı şəhərində anadan olub. Bacısı ilə çox mehriban və dostdurlar.

Ayan boş vaxtlarında kitab oxumağı çox sevir. O, xoşbəxtliyi ailəsi ilə birlikdə olmaqda görür.

Bu kiçik qəlbdə böyük arzular kök salıb. Ümid edirik ki, bir gün böyük arzularla yaşayan kiçik Ayanımız öz istəyinə çatmaqla müəllim və valideynlərinin fəxri olar.

Sonda jurnalımız adından Ayana da bol uğurlu gələcək və razı qalacağı xoş tale arzulayırıq!





# ZÜLFÜQARLI SƏMA



**“Elm varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir”.**

Özümüzü təzə-təzə dərk etdiyimiz illərdən başlayaraq həyatımızın böyük bir qismini məktəb həyatı ilə bağlayırıq. Daha doğrusu, məktəbdə yaşadığı illərdə insan bu illərin onun üçün nə qədər dəyərli olduğunu o qədər dərk etmir. Amma məktəb illərinin insanın həyatı üçün nə qədər dəyərli, vacib olduğunu uşaqlar başa düşməsə də, başda valideynlər olmaqla o mərhələni adlayıb keçmiş istənilən şəxs dərk edir. Məktəbin işi çox çətin və məsuliyyətlidir. Məktəb şagirdlərə paralel olaraq həm həyat dərsi, həm də savad verir. Bu iki amildən biri kənarda qalanda insanın gələcək həyatında böyük bir sual işarəsi yaranır. Axı məktəb hərtərəfli, dünyagörüşü geniş olan, həyati bacarıqlara malik şagirdlər yetişdirir. Belə şagirdlərimizdən biri də Zülfüqarlı Səma Şahin qızıdır. Zülfüqarlı Səma Şahin qızı 7 fevral 2009-cu ildə Pirəkəşkül qəsəbəsində anadan olub. 2015-ci ildə Laçın rayon Həsən Qorçiyev adına Sufiyan kənd tam orta məktəbinə daxil olub. İbtidai sinifdə təhsil alan Səma sinfin əlaçı uşaqlarından biridir. Dil öyrənməyə marağı olan Səmanın sevimli fənni Azərbaycan və ingilis dilləridir. Bu fənlərə marağının böyük olmasına səbəb həmin fənləri tədris edən Tünzalə və Vəfa müəllimin peşəkar olmasıdır. Sinif müəllimi olan Tünzalə müəllimin şagirdlərin təlim-tərbiyəsində onların savadlı bir gənc kimi formalaşmasında böyük rolu var. Dərslərindən əlavə özünü püxtələşdirmək üçün rəsm çəkir. Bu onun sevimli məşğuliyyətidir. O rəsm fırçası ilə al-




LAÇIN RAYONU

HƏSƏN QORÇİYEV ADINA ŞƏFİYAN KƏND TAM ORTA MƏKTƏB

TƏŞƏKKÜRNAMƏ

Hörmətli valideyn Zülfüqarov Şahin

Övladınız VII sinif şagirdi Zülfüqarlı Pəri

2017-2018-ci tədris ilini

Məktəbin direktoru: Cəfərov Babək

Sinif rəhbəri: Cabbarova Gülnar

təb rəhbərliyi tərəfindən "Təşəkkürnamə" ilə təltif edilmişdir. Həyatda arzusu baxdığı türk filmlərindəki aktyorlarla tanış olmaqdır. Pəri böyüyəndə Azərbaycan dili və ədəbiyyat müəllimi olmaq istəyir ki, bu da onun ən böyük arzusudur. Çünki dilinə və bədii yaradıcılığa böyük marağı var. O peşəkar pedoqoq olmaq, gələcək nəsillərə öz töhvəsini vermək istəyir.Pərigilin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Zülfüqarlı Şahin Nizami oğlu 26 fevral 1977-ci ildə Laçın rayonunda anadan olub. Zəhmətkeş insandır. Tikinti şirkətində işləyərək ailəsini öz halal zəhməti ilə saxlayır.

Anası Rzayeva Vüsalə Ümid qızı 12 iyul 1980-ci ildə Laçın rayonunda anadan olub. Hazırda Laçın rayonunda 6 saylı məktəbdə fizika müəllimi işləyir. Vüsalə xanımın ən böyük arzusu qızını gələcəkdə peşəkar müəllim kimi görməkdir.

Pərinin özündən balaca bir bacısı var. Zülfüqarlı Səma Şahin qızı 7 fevral 2009-cu ildə Bakı şəhərində anadan olub. Hazırda 4-cü sinifdə oxuyur. O da bacısı kimi dərsləri-ni əla qiymətlərlə oxuyur.

Biz də kollektivimiz adından Pəri balamıza bol-bol uğurlar arzulayırıq. Elm həyatı ona böyük nailiyyətlər qazandıraraq daha yüksək zirvələrə ucaltsın.









# BABAVERDİYEV BƏHRUZ







**"Adamlar mütaliədən əl çəkəndə, fikirləşməkdən də qalırlar"**

***(Deni Didro)***

Oxumaq dünyagörüşünü formalaşdırır. Düzgün kitab oxumaqla insanın dünyaya baxışı genişlənir, dərinləşir, təfəkkürü inkşaf edir, düşünmək və analiz etmək bacarığı artır. Bilikli insanın hər kəsdən fərqli, yalnız özünəməxsus bir dünyası olur ki, o öz dünyasında sualları, fikirləri ilə başbaşadır. Kitablar ağlının yeni tərəflərini sənə açır, əvvəl heç vaxt diqqət etmədiyin bacarıqlarını ortaya çıxarır.

Haqqında bəhs edəcəyimiz növbəti həmsöhbətimiz Bəhruz da daima öz üzərində çalışan, savadlı şagirdlərimizdəndir.

Dünyaya gəlməmişdən bir neçə ay öncə avtomobil qəzası zamanı həyatını itirən atasının adını daşıyan qəhrəmanımız onun xatirəsini əziz tutaraq, hər zaman ailəsinin başını uca tutur.

Babayev Bəhruz Bəhruz oğlu 20 dekabr 2007-ci ildə Bakı şəhərində dünyaya gəlmişdir. 2013-cü ildə birinci sinfə qədəm qoymuşdur. Hal-hazırda Laçın rayon 34 saylı tam orta məktəbin 6a sinifində oxuyan həmsöhbətimiz, dərslərini çox yaxşı oxuyur. Anası Babaverdiyeva Mənsurə satıcı işləyir, bacısı Babaverdiyeva Aytac məktəblidir.

Bütün fənləri və müəllimlərini sevən balaca Bəhruz, asudə vaxtlarını idman etməklə səmərəli keçirir. İdman onun üçün sadəcə bir məşğuliyyət deyildir, o həm də bu sahədə nailiyyətlər əldə edərək, birinci yerə layiq görülmüşdür. Əldə etdiyi "Diplom" da buna canlı sübutdur. Bəhruz atasının istəyinə görə gələcəkdə hərbiçi olmaq arzusundadır. Hərbiçilik çətin sənət olmaqla yanaşı, həm məsuliyyətli, həm də əsl kişilik məktəbidir. Rəhmətlik atasının da ən böyük arzusu oğlunun əsl kişi kimi böyüməsidir. Onun minbir əziyyətlə anası Mənsurə xanım böyüdüb, təhsil verib.

Təlim-tərbiyəsinə, əldə etdiyi bütün uğurlarına, nailiyyətlərinə görə həm Bəhruz, həm də jurnalımız adından anası Mənsurə xanıma təşəkkür edirik. Tək bir ana olaraq bütün çətinliklər rəğmən övlad böyüdüb təhsil vermək, həyatı ilə ciddi məşğul olmaq böyük bacarıqdır.

Sonda dərgimiz adından həm Bəhruza, həm ailəsinə uğurlar arzulayırıq. İnanırıq ki, o da gələcəkdə vətənimizin keşiyində hünərlə duran igid hərbiçilərimizdən olacaqdır!



# BABAYEVA ŞÖLƏ






**”Hər bir elmin açarı sual işarəsidir”**
***(Onore de Balzak)***

İnsan oxuduqca daha az bildiyinin fərqinə varır, daha çox oxumağa, məlumat əldə etməyə can atır. Öz üzərində çalışaraq, daim bilik əldə etməyə çalışan hər bir şəxsi işıqlı gələcək gözləyir. Çünki insan övladının ən böyük uğuru da məhz onun təhsili, biliyi sayəsində əldə etdiyi nailiyyətləridir. Sizə bu dəfə haqqında söz açacağımız Şölə qızımız da daima mütaliəyə, elmə, biliyə doğru addımlayan istedadlı məktəblilərimizdəndir.

Babayeva Şölə Heydər qızı 2008-ci il 11 iyun tarixində Qobustan rayonunda anadan olmuşdur.2014-cü ildə birinci sinfə qədəm qoyan Şölə, hazırda 15№li Laçın rayon tam orta məktəbinin V sinifində təhsil alır.

Onun ən çox sevdiyi fənlər Azərbaycan dili və tarixdir. Sevimli müəllimləri isə Səriyyə və Aişə adlı müəllimləridir. Gələcəkdə peşə seçimində qərarlı olan həmsöhbətimiz, müəllim olmaq arzusundadır. Məqsədinə çatmaq üçün daim çalışan Şölə, çox yaxşı oxuyur, dərslərindən əla qiymətlər alır. Şölə boş vaxtlarında televizorda maraqlı verilişlərə baxır, bədii kitablar oxuyur.

Şöləgilin ailəsi 4 nəfərdən ibarətdir. Ailə başçısı olan atası Babayev Heydər 1986-cı il 10 iyulda anadan olmuşdur, bənna işləyir. Anası Babayeva Səkinə 1990-cı il 18 dekabr tarixində Qobustanın Cəyirli kəndində anadan olmuşdur. Şölənin Firuzə adlı bir bacısı var. O, 2011-ci il dekabrın 5-də doğulmuşdur. Firuzə hazırda ikinci sinifdə oxuyur.O, böyük bacısından çox şey öyrənir, onunla birgə dərslərini həll edir.

Dərslərdə daima aktiv olan Şölə, müəllimlərinin sevimlisidir. Ən böyük uğuru isə məhz onun bu beş ildə yaxşı dərs oxuyub sinifdə əlaçılığını qoruyub saxlamasıdır. İnanırıq ki, qəhrəmanımız sona qədər bu yolla irəliləyəcək və bu əzm onu sevimli peşəsinin sahibi edəcəkdir.

Sonda biz də ənənəvi olaraq, gələcəyin müəllimi olacaq qəhrəmanımıza uğurlar, bol şans, enerji, iradə, səbr arzulayırıq. Valideynlərinin, müəllimlərinin, vətəninin fəxri olasan!





# ZÜLFÜQARLI PƏRİ



**“Hər bir millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır”.**
***(Abdulla Şaiq)***

Cavan qalan həmişə cəmiyyət olur, qocalan isə elm olur. Bu fikir hansısa fiziki, cismani qocalmaq mənasında yox, öz əbədiliyini qoruyub saxlamaq mənasında başa düşülür. Belə ki, elm həmişə araşdırma sahəsi olub müəyyən alim və tədqiqatçıların apardığı və üzə çıxardığı həqiqətlər toplumudur. Bu məlum həqiqətlər qocalaraq bir nəsildən yeni nəslə əsrlərdən-əsrlərə yol alaraq ötüb keçir və qocalır.

Hazırda dünyada böyük elmi inqilab dövrü yaşanır. Dünyanın inkişaf etmiş ölkələri öz elminin sayəsində bugünkü inkişaf modelinə nail olublar, həmçinin yüksək təhsil və insan kapitalı sayəsində özlərinin ən inkişaf modelinə çata biliblər. Çox istəyərdik ki, bizim ölkəmiz də elm və texnoloji inkişaf etdiyi ölkələrdən biri olsun, onun üçün bizə ilk növbədə elmli, bilikli, yüksək ixtisaslı kadrlar lazımdır. Jurnalımızın da əsas məqsədi belə savadlı, ixtisaslı kadrları tapmaq, onları ölkəmizə tanıtmaqdır. Jurnalımızın bu sayının qəhrəmanı Zülfüqarlı Pəri Şahin qızıdır.

Zülfüqarlı Pəri Şahin qızı 11 sentyabr 2005-ci ildə Bakı şəhərində Pirəkəşkül qəsəbəsində anadan olub. 2011-ci ildə Laçın rayonu Həsən Qorçiyev adına Səfiyan kənd tam orta məktəbinə daxil olub. Hazırda həmin məktəbdə 8-ci sinifdə oxuyaraq təhsilini davam etdirir. İstedadlı və bacarıqlı olan gözəl Pəri sinfin nümunəvi şagirdlərindən biridir. Onun sevimli fənni Azərbaycan dili və biologiyadır. Bu fənlərə olan sevgisi müəllimlərin tədris etdiyi dərsin keyfiyyətləri ilə bağlıdır. Orta məktəbdə ən çox sevdiyi və hörmət bəslədiyi müəllimlər isə Aygün, Əminə və Qəribə adlı müəllimləridir. Pəri çalışır ki, hər zaman müəllimlərinin sevgisini və rəğbətini qazansın. Daim elmə, öyrənməyə marağı olan Pəri hətta asudə vaxtlarını da dəyərləndirərək çoxlu bədii kitablar oxuyur. Pərinin ən böyük uğuru 2017-2018-ci tədris illərində olmuşdur. Dərslərini yaxşı oxuyaraq sinif əlaçısı olmuş, tədrisdəki nizam-intizamına görə sinif yoldaşlarına nümunə olmuş, müəllimlərinin rəğbətini qazanmışdır. Bu uğuru münasibəti ilə mək-








Bütün günü dərsləri ilə məşğul olan Mədinə boş vaxtlarını rəsm çəkmək, kitab oxumaqla dəyərləndirir. Kitab onun üçün müqəddəs bilik mənbəyi, dəyərli xəzinədir. O, kitab oxumaqla balaca xəyal dünyasını zənginləşdirir, nitqini püxtələşdirir. Dərsdən kənar əlavə məşğələlərə getməyən Mədinə ancaq təhsili üçün çalışır. Onun bu yaşa qədər ən böyük uğuru əlaçı və məktəb tədbirlərində aktiv iştirakçı olmasıdır. Hətta "Xocalının Səsi" adlı keçirilən məktəb tədbirində fəal iştirakına görə "Tərifnamə" də alıb. Bu, onun ilk uğurlarından olsa da, inanırıq ki, uğurlarının davamlı və peşəkar olması üçün onu qarşıda parlaq bir gələcək gözləyir. Arzumuza şərik olan Mədinənin ailəsi də onunla nəfəs alır və onun uğurlu taleyi üçün əlindən gələni əsirgəmir. Onun ailəsi özü ilə birgə 4 nəfərdən ibarətdir.

Ailə başçısı, yəni atası Təmrazov Samir 1986-cı il mayın 5-də Şuşa rayonunun Sarıbaba kəndində anadan olub. Orta təhsillidir və ailəsini qaynaqçılıq peşəsi ilə məşğul olaraq dolandırır.

Anası Hümbətova Minarə Fərmayıl qızı 1989-cu il mayın 10-da Şuşa rayonunun Sarıbaba kəndində anadan olub.Orta təhsilli və evdar xanımdır. Vaxtını uşaqlarının təlim-tərbiyəsi, təhsili ilə maraqlanaraq keçirir. Mədinənin 5-ci sinifdə oxuyan Nicat adında bir qardaşı var ki, o da dərslərində əlaçı olmaqla yanaşı, həm də bilik yarışmalarında uğuları olan bir şagirddir. O, məktəblərarası keçirilən bilik yarışmasında iştirak edərək birinci yeri tutub. Bu münasibəti ilə "Təltifnamə" də alıb. Onun futbola böyük marağı olduğundan asudə vaxtlarını futbol oynamaqla keçirir.

Öyrənilәsi biliklər həyatda çox, lakin bir insan ömrü bunun üçün çox azdır. Odur ki, vaxtını düzgün və planlı şəkildə istifadə edərək həm çox bilik sahibi, həm də uğurlu bir şəxsiyyət olmaq olar.

Elə bu fikirlə yazımızı tamamlayıb öz jurnalımızın kollektivi adından Mədinəyə məktəb və gələcək həyatında böyük uğur və nailiyyətlər, zehin açıqlığı, cansağlığı və unudulmaz xoş günlər arzulayırıq. Qoy zamanını düzgün dəyərləndirib elm və onun nurundan hər zaman faydalansın. Taleyi uğurlu, ömür yolu açıq olsun!









# CƏMALƏDDİNOVA ƏSMA







**"Xoşbəxtlik zəhmət və iradənin,əmək və səyin nəticəsində əldə edilir"**
***("Kəlilə və Dimnə"dən )***

İnsan həyatı fiziki cəhətdən keçici olsa da, mənəvi cəhətdən yaşaya bilir. İnsanın ölməzliyi onun xeyirxah əməlləri ilə, xalqına xidməti ilə ölçülür. İnsan, ömrünü saniyə, dəqiqə, saat, gün və aylara çevirərək, son akkordlarını vurur. Bu səbəbdən insan vaxtını boş keçirməməlidir. İnsanın ölməzliyi onun humanizmində özünü göstərir. Əsma da vaxtını faydalı işlərə sərf edən, öz öhdəsinə düşən işləri yerinə yetirən bir istedadlı şagird kimi tanınır.

Əsma Samir qızı Cəmaləddinova 20 sentyabr 2011-ci ildə Bakı şəhərində doğulub. Ailənin ilk sevinci olan Əsmanın adını valideynləri qərarlaşaraq qoymuşlar. Ailənin sevimlisi olan balaca qızcığaz öz yaşıdları ilə çox tez ünsiyyət qurmağı bacarır.

Həmsöhbətimiz 2016-2017-ci illərdə "Yeni nəsil" tədris mərkəzində məktəbəqədər hazırlıq kursunu müvəffəqiyyətlə bitirmişdir. 2017-ci ildə Kəlbəcər rayonu 84 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 2b sinfində oxuyur. Əsma incəsənətə böyük maraq göstərir. Ən çox sevdiyi dərsi isə təsviri incəsənətdir. Sevimli müəllimi Siyabənd müəllimdir. Müsahibimiz böyüyəndə modelyer-dizayner olmaq istəyir. Əsmanın uğur və nailiyyətləri də vardır. O, sınaq imtahanlarında topladığı yüksək nəticəyə görə "Tərifnamə" ilə mükafatlandırılıb. Əsma boş vaxtlarında şahmat oynamağı, rəqs etməyi çox sevir. O həmçinin, model kimi də fəaliyyət göstərib. Bütün bunlar onun çox istedadlı və fərqli biri olduğunu isbatlayır. Ailəsi də daim onun yaxşılığı və uğurlu gələcəyi üçün çalışır.

Atası Cəmaləddinov Samir Nail oğlu 1981-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsillidir, mühafizəçi işləyir. Anası Cəmaləddinova Ülkər Elşən qızı 1992-ci ildə Quba rayonunun Rustov kəndində anadan olmuşdur. Evdar qadındır.

Sonda, biz də redaksiyamız adından Əsma qızımıza həyat yolunda uğurlar, bol şans, xoşbəxtlik arzulayırıq. Qoy istedadı və ağılı ilə hər zaman özü həyatın bütün mübarizələrindən üzü ağ, bəxti parlaq çıxsın!





# MƏMMƏDOV İBRAHİM





**"Dünyada ən böyük xeyir-elm, ən böyük şər-nadanlıqdır"**

***(Sinoplu Diogen)***

Vətəninə, xalqına, ailəsinə sevinc verən övladlarımızın səsi həmişə yüksəkdən gələndə insanda qürur, fərəh hissi baş qaldırır. Çünki istər elm, istər incəsənət, istərsə idman hər biri ölkəni dünyada təmsil edən vacib sahələrdir ki, istənilən şəxs bu sahələrdə özünə müəyyən nüfuz və ad qazanırsa deməli böyük uğur və mövqeyə adlamış olur, özü ilə yanaşı təmsil etdiyi ölkəni, millətin adını da ucaltmış sayılır. Belə istedadlı balalarımızdan biri də Məmmədov İbrahimdir.

İbrahim Məmmədov Emil oğlu 2011-ci ilin mayın 17-də Bakı şəhərində dünyaya gəlib. Gəlişi ilə ailəsinə böyük sevinc gətirib İbra-







# Təmrazova Mədinə



**"Allahım! Mənə öyrətdiyin elmlə məni faydalandır, mənə fayda verəcək elm öyrət və elmimi artır. Bütün hallarda allaha həmd olsun! Cəhənnəm əhlinin halından Allaha sığınıram!"**

***("Tirmizi", Dəavat, 129)***

Bilik xəzinədir, onun açarı sualdır deyimi hədər yerə işlənməyib. Bilmədiyiniz şeyi soruşun ki, allah öz rəhmini sizə əta etsin. Çünki dinimizdə də buyrulub ki, sual soruşana, cavab verənə, eşidənə və onları dost sayana böyük savab verilir. Kim ki, öyrənməkdən usanmır, daim bilik və təhsil yolunda addımlayır, o, ağır və məsuliyyətli bir işlə məşğul olmaqla yanaşı, həm də savab iş görmüş olur. Çünki elmli insanın mədəniyyəti, savadı, dünyagörüşü cahil insandan müqayisəyəgəlməz formada fərqlənməklə yanaşı, həm də cəmiyyətə və ölkəsinə verməş olduğu fayda böyük olar. Buna misal olaraq, dünyanın inkişaf etmiş ölkələrini göstərmək olar. Belə ki, Qərbi avropa, Şimali Amerika, uzaq şərq ölkələri və bir çox əlavə coğrafi regionlarda yerləşmiş ölkələr var ki, onların elmi-texnoloji inqilab sahəsindəki sahib olduğu müasir sənaye, iqtisadiyyat və əhalinin yüksək sosial təminatlı yaşayış rifahı məhz elmin, insan beyninin inkişafı sayəsində mümkün olmuşdur. Odur ki, inkişaf etməkdə olan bir neft ölkəsi olaraq bizim gənc nəsil də bunu dərk edib indidən kitaba, elmə sarılmalı və parlaq gələcəyin, uğurlu ölkə, insan modelinin onunla bağlı olduğunu dərk etməlidir. Elə bu qayə ilə nəşr edilən və elm, təhsil sahəsi üzrə ixtisaslaşmış "Çağdaş Təhsil" jurnalının növbəti məktəbli qəhrəmanı olan Təmrazova Mədinəni oxuculara təqdim edirik.

Sadə, zəhmətkeş bir ailənin övladı olan Təmrazova Mədinə Samir qızı 2010-cu il oktyabrın 11-də Kürdəmir rayonunda anadan olub. O, evin ikinci övladı olsa da, dünyaya gəlişi ilə ailəsinin böyük sevincinə səbəb olmuş, daim valideynlərinin yeganə qız övladı olaraq əzizlənərək böyüdülmüşdür. Beləcə addım-addım böyüyərək məktəb yaşına çatan Mədinə bala 2017-ci ilin tədris ilindən etibarən hər bir uşağın səbrsizliklə gözlədiyi orta təhsil həyatına qədəm qoyur. O, Laçın rayon 3 saylı tam orta məktəbin birinci sinfinə getməklə məktəbin necə də dəyərli, xəzinə olduğunu dərk edir, ona keçirilən təhsili uğurla mənimsəməyə başlayır. Hazırda Mədinə həmin məktəbin 2-ci sinifində təhsilini uğurla davam etdirir. Onun məktəb həyatının ikinci ili olmasına baxmayaraq, iti ağlı, dərin zəkası, hazırcavablığı ilə sinifdə seçilməyi bacarıb, həmçinin fərqlənənlərdən olub. Mədinə buna tək özü deyil, ilk müəllimi olan sevimli Günel müəlliminin sayəsində nail olub. İkinci sinifdə Günel müəllimi Faidə müəllimə ilə əvəz olunsa da, sonuncu müəllim də ona özünü sevdirməyi bacarıb. Mədinə ilk müəllimlərinə olan dərin sevgi və sayğısından dolayı özü də gələcəkdə müəllim olmaq istəyir, eynilə Günel müəllimi kimi savadlı və peşəkar. Amma onun rəsm qabiliyyəti də olduğundan istəyir ki, gələcəkdə müəllim peşəsi ilə yanaşı, rəssamlıq sahəsi üzrə də əlavə təhsil alıb öz fırçasının möcüzələrini daha peşəkar səviyyədə tanıtsın, özünü incəsənətdə də ifadə etsin.

# RAMİZ BAĞIROV





**"İnsan sahib olduqlarının deyil, reallaşdırmaq istədiklərinin cəmidir. Edə biləcəyimiz hər şeyi etsəydik buna özümüz də təəccüblənərdik".**

**(Tomas Edisson)**

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin üzvi bağlılığı olub. Gənc nəsillərin öyrədilməsi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdən biridir.

Məlumdur ki, hər bir gənc nəsilin gələcəyi onun təhsil səviyyəsi ilə ölçülür.

Gənclər cəmiyyətin əsas hərəkətverici qüvvəsi, ölkəmizin bu gününün, sabahının varlıqlarıdır. Təhsil insanın həyatında vacib rol oynayır.Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa heç nədir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdır. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.

Jurnalımızın növbəti qəhrəmanlarından biri Bağırov Ramiz Ramil oğludur. O, 2008-ci il oktyabrın 7-də Sabirabad rayonunun Qaragüney kəndində anadan olub. 2013-cü ildə Asif Məmmədov adına Osmanlı kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbin çalışqan və nümunəvi şagirdlərindən olan Ramizin sevimli fənləri Azərbaycan dili, ingilis dili, riyaziyyat, tarix, fizikadır. Sevdiyi və hörmət bəslədiyi müəllimləri isə Rəşad, Nərmin, Əminə, Telli, Sevinc adlı müəllimləridir. Ramizin uğurları təkcə dərslərindən aldığı yüksək qiymətlərlə yekunlaşmır. Qeyd edib ki, sınaq imtahanlarında 345 bal toplamaqla ən yüksək nəticəni göstərərək müəllimlərinin sevimlisinə çevrilib.

Bu uğuruna görə ona dərs keçən müəllimlərə borcludur.

Bunun üçün o həmişə dərslərini həvəslə oxuyur ki, müəllimlərinin ona olan etimadını doğrultsun. Asudə vaxtlarını məktəbdə keçirilən idman yarışlarında iştirak etməklə keçirir. Sevimli məşğuliyyəti futboldur. Pərəstişkarı olduğu komanda isə Real Madriddir. Gələcəyə böyük ümidlərlə baxan və gələcək arzularını indidən seçən Ramiz Polis Akademiyasına daxil olmaq istəyir. Xalqına, ölkəsinə sədaqətlə xidmət edərək ədalətli polis olmaq istəyir. Ramizin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Bağırov Ramil Ramiz oğlu 1983-cü ildə Sabirabad rayonunda anadan olub. 36 yaşı var.Hal-hazırda neft sahəsində işləyir.

Anası Bağırova Günay Əlican qızı 1987-ci ildə Sabirabad rayonunda anadan olub. 32 yaşı var. Hal-hazırda evdar xanımdır.

Ramizin Ramin, Hüseyn, Əli adında 3 qardaşı var.

Biz də öz adımızdan Ramiz balamıza gələcək həyatında uğurlar, nailiyyətlər arzulayır, ona ən xoş taleyi yaşamağı, ən xoş günləri görməyi diləyirik.











him balamız. Hal-hazırda Kəlbəcər rayonu 84 saylı tam orta məktəbin 2b sinifində təhsil alır. İncəsənətə böyük maraq göstərən həmsöhbətimiz böyüyəndə rəssam-dizayner olmağı qərara alıb. O balaca rəngarəng dünyasında fırçanın köməkliyi ilə xəyalların milyon cür çalarını canlandırır və ana təbiət portretlərini çox sevir. Odur ki, onun ən çox sevdiyi müəllimi təsviri incəsənət dərsini tədris edən Siyabənd müəllimdir. İbrahim bununla kifayətlənmir. O, dərslərini də yaxşı oxuyur. Boş vaxtlarında sevimli məşğuliyyəti olan rəsm çəkməklə məşğuldur. Ona görə rəsm çəkmək gərginliyi aradan qaldırır, həyacanlar və narahatlıqlar tamamilə insanı tərk edir. İnsan şəkil çəkərkən beyni tam başqa cür işləyir. İntuitiv və yaradıcılıq təfəkkürü işə düşür. Karton parçalarından gözəl oyuncaq maketləri hazırlamaq da onun sevdiyi məşğuliyyətlərdəndir.

İbrahimgilin ailəsi 4 nəfərdən ibarətdir. Atası Məmmədov Emil Əliağa oğlu 1987-ci il 5 iyunda doğulub, xidməti sahə üzrə çalışır. Anası Məmmədova Aytən 1992-ci il 24 fevralda doğulub, evdar xanımdır. Qardaşı Məmmədov Ceyhun 2013-cü il 14 dekabr doğumludur. Onun 6 yaşı var.Ceyhun hal-hazırda rəqs məktəbinə gedir. Onun da qadaşı kimi maraqlı əl qabiliyyəti var.

Onun ailəsi, valideynləri çalışır ki, övladlarının gələcəyi parlaq və uğurlu olsun və təhsili, gələcəyi üçün əllərindən gələni əsirgəmirlər.

İbrahim istəyir ki, açdığı cığırlarda heç bir maneəyə rast gəlməsin. Biz də jurnalımız adından İbrahimə xoşbəxtlik arzulayırıq. Bütün yolları çəkdiyi rəsmlər kimi rəngarəng və maraqlı olsun. Gələcəyin peşəkar dizayneri kimi öz həyatını uğurlu qurub dizayn etmək nəsib olsun.



# MƏMMƏDOVA GÜNAY





**”Oxumaq-gözəlliyi dərk etmək, zövq sahibi olmaq deməkdir”**
**(K.Fedin)**

Təhsil insanın həyatında ən vacib faktorlardan biridir. İnsanı geyiminə görə qəbul edib, ağlına görə yola salarlar ifadəsi də əbəs yerə deyilməyib. Çünki bər-bəzək, daş-qaş insanın şəxsi və mənəvi keyfiyyətlərindən üstün ola bilməz. Daş-qaş elm, bilik qazandırmaz, amma elm insana maddi və mənəvi bütün keyfiyyətləri, qazancları qazandıra bilər. Çünki günümüzdə təhsilsiz olmaq, öz hüquqlarını bilməmək, cəmiyyətdə özünə yer tapa bilməmək deməkdir. İnsanlar bir-birilərinə ürəkdən gələn xoş arzularını bildirərkən, ilk növbədə, sağlam can, uzun ömür arzulayırlar. Çünki insan fiziki cəhətdən, nə qədər sağlam olarsa, yaşayışını təmin etmək asan olar, ancaq elmsiz, biliksiz bu tam da mümkün deyil. İnsanın ən böyük sərvəti oun sağlamlığı və təhsillidir. Haqqında növbəti yazımızda söhbət açacağımız qəhrəmanımız Günay da insanlara həmişə sağlam can və zəngin bilik arzu edir.

Günay Məmmədova Əbülhəsən qızı 16 iyul 2006-cı ildə Bakı şəhərinin Sabunçu rayonunda dünyaya gəlib. 2012-ci il sentyabrın 15-də Kürdəmir rayonu 5 saylı tam orta məktəbində birinci sinfə qədəm qoyub. İbtidai sinfi əla qiymətlərlə bitirən Günay buna görə müəllimlərinə daim minnətdardır. Şəkli Kürdəmir rayonu 5 saylı tam orta məktəbində şərəf lövhəsinə vurulmuşdur. Bu da səbəbsiz deyildir, çünki o ağıllı və savadlı şagirdlərdən olmaqla adını şərəf lövhəsinə vurdurmağı bacarıb.

2017-ci ildən etibarən Günay Kəlbəcər rayonu 84 saylı tam orta məktəbdə təhsilini davam etdirir. Hazırda o, 7-ci sinif şagirdidir.Günay burda da dərslərində əlaçıdır. Müəllimlərinə xüsusi rəğbəti olan Günayın ən sevimli fənni Azərbaycan dili və ədəbiyyat, ən sevimli müəlli-
















onların sağlamlığının keşiyində durmaq istəyir. Həkimliyi çox sevən Xədicə bunun üçün dərslərini yaxşı oxuyur ki, istəyinə nail olsun. Onun indiyə qədərki ən böyük uğuru dərslərini yaxşı oxuduğu üçün bilik və bacarıqda fərqlənməsinə görə layiq görüldüyü ”Sertifikatı” dır.

Xədicə boş vaxtlarını çoxlu kitablar oxuyaraq, musiqi dinləyərək səmərəli keçirir.

Həmsöhbətimizin atası Rüstəmov Soltan Əlinizam oğlu 1983-cü ilin iyulun 23-də Sabirabadın Türkədi kəndində anadan olub. Hazırda bizneslə məşğuldur. Anası Rüstəmova Gülər Şahbaz qızı 1985-ci il aprelin 12-də Sabirabadın Əlicanlı kəndində anadan olub, orta ixtisas təhsilli ibtidai sinif müəllimidir.

Həyatda yeganə amalı daim irəli getmək olan həmsöhbətimiz Xədicə savadlı həkim kimi səhiyyə sahəsində bir yenilik edib, tarixin yaddaşında qalmaq istəyir. Biz də jurnalımız adından Xədicəyə bu çətin amma şərəfli yolda uğur arzulayırıq.

# RÜSTƏMLİ XƏDİCƏ



**"Qarşına qoyduğun məqsədi azad seçib, ona nail ola bilirsənsə, deməli xoşbəxtsən".**

***(H.Cavid)***

Tarixin enişli-yoxuşlu yolları ilə irəliləyən dünyamız gündən-günə inkişaf edib irəliləyir. Bəşəriyyətin biliyi ağlasığmaz dərəcədə sürətlə zənginləşir. Bu dövrdə formalaşan gənclərə böyük ehtiyac duyulur. Biz də jurnalımız adından bu cür istedadlı gəncləri üzə çıxarmaqla məşğuluq.

Növbəti jurnal qəhrəmanımız Xədicə Rüstəmli də parlaq gələcəyi olan məktəblilərimizdəndir.

Xədicə Soltan qızı Rüstəmli 2011-ci il sentyabrın 14-də Bakı şəhərində anadan olub. 2017-ci ildə orta məktəbə yollanan Xədicə hazırda Sabirabad rayon Niyaz İsmayılov adına Əlicanlı kənd tam orta məktəbinin 2-ci sinif şagirdidir. Dərslərini əla qiymətlərlə oxuyan Xədicənin sevimli fənləri - riyaziyyat və ingilis dili, sevimli müəllimləri isə Rəmziyyə və Hüsniyyə adlı müəllimlərdir.

Xədicə gələcəkdə həkim olmaq arzusundadır. O, insanlara bir həkim kimi xidmət edib,














mi isə İsgəndərova Şəhanə müəllimidir. Böyüyəndə iş adamı, dövlət işçisi olmaq istəyən qəhrəmanımız bu yolda səylə çalışır və müəllimlərindən maksimum bilik əldə etməyə səy göstərir. Boş vaxtlarında detektiv janrda olan kitabları oxumağı xoşlayır və bu kitablarla məntiqi düşünmə qabiliyyətini, hadisələri analiz etmək bacarığını artırır. Elə ailəsi də onun bu bacarığını qiymətləndirib ona hər cür dəstək olur.

Günaygilin ailəsi 5 nəfərdən ibarətdir. Atası Məmmədov Əbülhəsən Şakir oğlu 1982-ci ilin fevralın 21-də, anası Məmmədova Sima Məzahir qızı isə 1982-ci ilin fevralın 23-də , qardaşı Məmmədov Elgün 16 sentyabr 2010-cu ildə və bacısı Məmmədova Günel 25 sentyabr 2004-cü ildə doğulub. Atası çilingərdi, anası isə uşaq bağçasında işləyir. Günay valideynlərinin zəhmətini itirmir, onlara layiqli övlad olmağa çalışır.

Biz də öz növbəmizdə, Günaya gələcək planlarında uğurlar və ən əsası, sağlam həyat arzulayırıq. Öyrəndiyi elm, bilik daim ona təhsil və cəmiyyətdə layiqli status qazanmaq muradına qovuşmasında yardımçı olsun!



# MƏMMƏDXANLI FUAD






**“Bizim bu günki gəncliyimiz sağlam düşüncəli, vətənpərvər gənclikdir”**

**(H.Əliyev)**

Təhsil insan inkişafının ən mühim tərkib hissələrindən biridir.İnsan inkişafı baxımından təhsil prosesi insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Təhsilin keyfiyyəti nə qədər yüksək və mükəmməl olarsa, maddi və texniki bazası nə qədər zəngin müasir biliklərin ötürülməsi nə qədər aktiv və sürətli olarsa bir o qədər gözəl nəticələr əldə etmək olar.Təhsil insanın bilik, bacarıq və səriştələr əldə etməsi sahəsində imkanlarını genişləndirir, insan kapitalını formalaşdırır ,həyatı keyfiyyətini dəyişir və iqtisadi artımın mənbəyi rolunu oynayır. Müasir təhsil müəssisələri cəmiyyətin mədəni irsinin nəsildən- nəslə ötürülməsinə şərait yaradır və insanları onların iqtisadi və sosial statuslarını müəyyən edəcək peşəkar bilik və bacarıqlarla təmin edir. Eyni zamanda təhsil müddətində uşaq və yeniyetmələrdə mənəvi idealar, ətraf aləm haqqında rəy və təsəvvürlər formalaşır.

Jurnalımızın bu yazısının qəhrəmanı dərslərini əla qiymətlərlə oxuyan, kiçik yaşı olmasına baxmayaraq yaşıdları arasında seçilməyi bacaran Məmmədxanlı Fuad Aqşin oğludu.

Məmmədxanlı Fuad Aqşin oğlu 23 oktyabr 2011-ci ildə Bərdə şəhərində anadan olub. 2017-ci ildə Ağdam rayon 12 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hazırda həmin məktəbin 2-ci sinifində təhsili davam etdirir. Azyaşlı olmasına baxmayaraq Fuad çox kamil uşaqdır.O, bütün dərslərinin öhdəsindən asanlıqla gəlir və yüksək qiymətlər alır. Əsas tədris fənləri olan Azərbaycan dilinə, riyaziyyata, ingilis dilinə və təsviri incəsənətə olan marağı sonsuzdur. O, bu fənləri çox sevdiyini bildirib. İlk dəfə parta arxasında əyləşməyi, qələm tutub yazmağı ona öyrədən Kəmalə müəllim olmuşdur. İlk müəllimin nə adı, nə də haqqı heç vaxt unudulmur, yaddan çıxmır. Çünki ilk müəllimin şagirdlərin təhsil almasında, onların vətənə, millətinə layiqli övlad olmasında əvəzsiz rolu vardır. Kəmalə müəllim bildirib ki, Fuad istedadlı və diqqətli uşaqdır. Hər zaman dərslərinə hazırlıqlı gəlməklə digər uşaqlara da nümunədir. Həmçinin Fuadın dərslərinə məsuliyyətlə və diqqətlə yanaşmasında Lətafət müəllimin də böyük əziyyəti var.Bütün bunları dərk edən Fuad dərslərinə hər zaman diqqətlə yanaşır.Fuad hələ azyaşlı olarkən həm atasını, həm də anasını itirdiyi üçün nənəsi ilə yaşayır. Elə buna görə də indidən öz üzərinə düşən məsuliyyəti dərk edir. Bilir ki, gələcəyini elə qurmalıdır ki, nənəsinin tək başına çəkdiyi əziyyəti qismən də olsa o, əvəz edə bilsin.İradə nənə ilə apardığımız qısa və maraqlı müsahibədən aydın oldu ki, o, nəvələrinin təlim -tərbiyəsi ilə yaxından maraqlanır, dərsləri ilə ciddi məşğul olur. Fuad balamız azyaşlı olmasına baxmayaraq artıq öz gələcək peşəsini də indidən seçib və bildirib ki, orta məktəbi uğurla başa vurub Polis Akademiyasına daxil olmaq istəyir. Bu sahədə ixtisaslaşaraq dövlətin asayişi qorumaq və xalqın mənafeyini, hüququnu vicdanla və şərəflə yerinə yetirəcəyini qeyd edib.Dil biliklərini artırmağa çalışan Fuad azərbaycan dili və ingilis dilindən fərdi hazırlıq kurslarına gedir, dilləri sərbəst danışaraq öyrənir. Asudə vaxtlarını rəsm çəkməklə məşğul olduğunu bildirən Fuad deyir ki, rəsm çəkərkən insanın beyni, təfəkkürü işə düşür, yaradıcılıq qabiliyyəti təkmilləşir. Fuadın özündən balaca bir qardaşı var. Məmmədxanlı Fuad Aqşin oğlu 2 iyul 2013-cü ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda 6 yaşı var və məktəbəqədər hazırlığa gedir. Məktəbə getməməsinə baxmayaraq o da çox istedadlı uşaqdır. Artıq sərbəst yazmağı və riyaziyyatdan hesablamalar aparmağı bilir. Maraqlıdır ki, hər iki valideynlərini itirmiş bu iki qardaş ataları Aqşin, anaları Gülnar xanım üçün darıxsa belə ikisinin bir-birinə dayaq olması onları həyatda möhkəm tutunmağa kömək edir.

Biz də jurnalımızın kollektivi adından Fuad balamıza bol-bol uğur, müvəffəqiyyətlər arzulayırıq. Hər zaman müəllimlərinin və onun üçün əziyyət çəkən nənəsinin başını uca etsin.



# RƏMİLİ RAMİD







**Müəllim bağbandır, elə bağban ki,**
**Hər gül qönçəsində bir ömür yaşar.**
**Müəllim loğmandır, elə loğman ki,**
**Səsində, sözündə min bir məlhəm var.**

Zaman-zaman müəllim haqqında müdrik sözlər, gözəl kəlamlar deyənlər çox olmuşdur. Platon deyirdi: “Müəlimlik hər şeydən əvvəl bir tanrı sənətidir.” Makedoniyalı İsgəndər öz müəllimi Aristotel haqqında demişdir: “Valideynlərim məni göydən yerə endirdi, müəllim isə yerdən göyə qaldırdı”. Məhəmməd Peyğəmbər bilik öyrətməyi hər cür ibadətdən üstün sayır, Həzrəti Əli isə mənə bir hərf öyrədənin qulu olmağa hazıram deyirdi. Nizami Gəncəvi müəllimi günəşə bənzədirdi. Tolstoya görə öz işini sevən müəllim yaxşı müəllimdir. Müəllim şagirdlərin yaxın dostu, sirdaşı, onların bu günü, gələcəyi üçün narahat olanı, addımlarını düzgün atmaları naminə yol göstərənidir. Jurnalımızın bu sayının qəhrəmanı Rəmili Ramid Rəmi oğludur.

Rəmili Ramid Rəmi oğlu 2008-ci sentyabrın 23-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 2016-cı ildə M.Priyev adına Əliabad kənd tam orta məktəbinə daxil olub və hazırda həmin məktəbin 3-cü sinifində oxuyur. Məktəbə qədəm qoyandan bu günə qədər nümunəvi şagird olmağı bacarmış və tərbiyəsi ilə həm müəllimlərinin, həm də dostlarının sevimlisinə çevrilmişdir. Əsas tədris fənləri olan Azərbaycan dili və riyaziyyata böyük marağı var. Əlbəttə bu marağın olması hər şeydən əvvəl Aytəkin müəlliminin peşəkar və savadlı müəllim olmağından irəli gəlir. Aytəkin müəllim bütün şagirdlərini sevərək onlar arasında heç bir fərq qoymadan çalışır ki, onların hamısı eyni səviyyədə oxusun, vətəninə, millətinə layiqli övlad olsun. Məhz elə buna görə də ilk müəllimin heç vaxt nə haqqı, nə də adı unudulur. Sinif əlaçısı olan Ramid əla qiymətləri ilə sinfin qabaqcıl şagirdləri arasında gedir. Asudə vaxtlarını nağıl kitabları oxumaqla və futbol oynamaqla keçirir. Gözəl səsə, intonasiya malik olan Amid gələcəkdə müğənni olmaq istəyir. Hətta boş vaxtlarında özünü bu sahə üzrə sınayır. O, bildirir ki, bu sənətə yiyələnmək üçün ritmi yaxşı bilməli, gözəl tembrli səsə malik olmalısan. Ramidin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Rəmiyev Rəmi Habulla oğlu 14 oktyabr 1983-cü ildə Yardımlı rayonunda anadan olub. Orta təhsillidir. Hazırda fərdi təsərrüfatla məşğul olur.

Anası Rəhmanova Ülkər İnşallah qızı 1986-cı ildə Yardımlı rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Ramidin iki qardaşı, bir bacısı var:

Rəmili Günel Rəmi qızı 12 sentyabr 2013-cü ildə Biləsuvar rayonunda anadan olub. 6 yaşı var. Məktəbəqədər hazırlığa gedir.

Rəmili Samid Rəmi oğlu 3 iyul 2011-ci ildə Biləsuvar rayonunda anadan olub. Hazırda 1-ci sinfə gedir.

Rəmili Amid Rəmi oğlu 24 noyabr 2009-cu ildə Biləsuvar rayonunda anadan olub. Hazırda 4-cü sinifdə oxuyur.

Biz də Ramid balamıza öz işçi heyətimiz adından bol-bol uğurlar arzu edirik. Yaxşı sənətkar və estradamızın parlaq ulduzlarından biri olmasını diləyirik!

# QURBANLI TƏRLAN





**Bu dünyanın hər sirrini**
**Bizə deyir bu kitablar.**
**Ömrümüzün yollarına**
**Nur çiləyir bu kitablar.**

Kitab insanın gənclik ömrünün ən gözəl tövhəsidir. Kitaba sabaha baxış, bugünə amalı olan əvəzolunmaz bir varlıqdır. Həyatımızın əvəzsiz parçasıdır. Kitab əqidəmizin formalaşmasında həyatımızda mühüm rol oynayan ən vacib amildir. Xarakterimizin möhkəmləndirilməsində, fərqli həyatlarla tanış olmağımızda, hər bir şəraitdə vəziyyətdən çıxış yolunu göstərir. Həyatın bütün çətinliklərini göstərir. Kitab hər anımızda bizə lazım olan ən vacib xəzinədir. Nəinki gənclik ömrünün, insanın hər dövründə, hər yaş mərhələsində mənəvi qidasıdır. Gənclik isə ömrün ən gözəl hədiyyəsidir. Bu gün gənclik inkişaf edir və onlar sağlam gələcək, yüksək təhsil və normal iş yerləri istəyirlər. Bu onların təbii haqqıdır. Ölkəmizdə gənclərlə bağlı siyasət ön plana salınmalı və onların bütün problem və çətinlikləri öz müsbət həllini tapmalıdır ki, itirən ölkə olmasın. Gənclərin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün, xalq üçün önəmlidir. Savadlı, yüksək mənəvi tərbiyəyə malik qəhrəmanlarımızdan biri də Qurbanlı Tərlan Elşən oğludur.

Qurbanlı Tərlan Elşən oğlu 21 mart 2010-cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 2018-ci ildə Əli Qurbanov adına Qalaqayın kənd tam orta məktəbinə daxil olub və hazırda 1-ci sinifdə oxuyur. Təhsil həyatına yeni başlasa da, çalışqanlığı və təlim-tərbiyəsi ilə müəllimlərinin diqqətini cəlb etmişdir. Tərlana parta arxasında oturmağı, yazı yazmağı öyrədən sinif müəllimi Mətanət müəllimdir. Dərslərinə məsuliyyətlə və diqqətlə yanaşan Tərlan oxumağın onun gələcəyi, seçdiyi sənət üçün çox vacib olduğunu qeyd edir. Bütün fənləri sevsə də ən sevimli fənni riyaziyyat fənnidir. Tərlan riyaziyyatdan yüksək məntiqi təfəkkürə malik olduğunu bildirib. Tərlanın ən böyük arzusu yüksək bal toplayaraq Tibb Universitetində təhsil almaq və həkim - mütəxəssis olmaqdır. Təkcə təhsil sahəsi deyil, eyni zamanda incəsənətə marağı olan Tərlan 3 yaşından sintizator musiqi alətində sərbəst ifa etməyi öyrənir. İdmanı da çox sevən Tərlan asudə vaxtlarında futbol oynamağı xoşlayır. Pərəstişkarı olduğu komanda Real-Madrid, sevimli futbolçusu isə Ronaldodur. Tərlanın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Qurbanov Elşən Aydın oğlu 2 may 1976-cı ildə Sabirabad rayonunda anadan olub. Qafqaz Holdinqdə mühafizə xidmətində işləyir.

Anası Qurbanlı Həmayə Mustafa qızı 2 may 1974-cü ildə Sabirabad rayonunda anadan olub. Hazırda evdar xanımdır.

Bacısı Qurbanova Sona Elşən qızı 2012-ci ildə Sabirabad rayonunda anadan olub. Hazırda qardaşı kimi 1-ci sinifdə oxuyur.

Redaksiyamız adından Tərlan balamıza uğurlar arzulayırıq. Biz əminik ki, o gələcəkdə peşəkar həkim olacaq və uğurları ilə daim ailəsini, müəllimlərini sevindirəcək.







# MEHTİYEVA LALƏ





**"Müəllimin evi kitabxanadır, dövləti şagirdlərdir, sazı, nəğməsi şagirdlərin sədası, qazancı isə millətin məhəbbət və ehtiramıdır"**

***(Sultan Məcid Qənizadə)***

Xalq arasında belə bir fikir mövcuddur."Müəllim dəyişəndə cəmiyyət də dəyişir."Bu onunla bağlıdır ki, insanların fikir və düşüncələrinin, həyata baxışlarının formalaşmasında, dəyişməsində müəllim müstəsna rol oynamaqla bütün cəmiyyətin şüurunda dəyişiklik yaratmaq gücünə malikdir.Həmişə əsl müəllim milli sərvət kimi qəbul edilmişdir.Qətiyyətlə demək olar ki, müəllim və şagird hər zaman mövcud olub və yeganə dəyərdir ki, mövcud olmaqda da davam edir. Çünki insan bilik və təcrübənin yeni nəsillərə ötürülməsi ilə sivilizasiyanın yüksək zirvəsinə çata bilər.

Bu yazımı gələcəkdə peşəkar rəssam olmaq və rəsm əsərləri ilə böyük nailiyyətlər qazanmaq istəyən Mehtiyeva Lalə Samir qızına həsr etmək istəyirəm.

Mehtiyeva Lalə Samir qızı 11 avqust 2002-ci ildə Ağdam rayonunun Güllücə kəndində anadan olub. 2008-ci ildə Laçın rayonu X.Q.Həsənov adına 3 nömrəli tam orta məktəbə daxil olub. Hazırda həmin məktəbin 11-ci sinifində oxuyur.Bu gün artıq Lalə xanımın 17 yaşı var. Və gənclik ömrünün ilkin mərhələsində, həyatının ən məhsuldar astanasında hesab olunur.Bu günə kimi o öz bilik və bacarıqları ilə öz uğurlu addımlarını atmaqdadır. Lalənin sevdiyi və böyük maraq göstərdiyi fənlər riyaziyyat və təsviri incəsənətdir. Onu bir fərd kimi yetişməsində ona təhsil verən müəllimlərinin öz rolu vardır. Bu müəllimlər Aynur, Ədibə, Türkan, Gülnaz adlı müəllimlərdir. Müəllim əməyinə yüksək qiymət verən Lalə bildirib ki, elə bir insan tapılmaz ki onun müəllimi olmasın. Dünyanı dəyişən, onu idarə edən, tarixi yaradan dahi şəxsiyyətləri də müəllim yetişdirib. Müəllim yeganə bir peşədir ki, onun heç bir alternativi yoxdur. Düşünürəm ki, zaman keçəcək on illər, yüz illər








ötəcək cəmiyyət və həyat daha yüksək mərhələsinə çatacaq, lakin müəllim peşəsi yenə bütün peşələrin zirvəsində dayanacaqdır. Uğurlarına gəldikdə isə Lalə bildirib ki, rəsm çəkməkdə fitri istedada malikdir və indiyə qədər bu sahədə böyük nailiyyətlər qazanıb. İlk uğuru 2018-ci ildə olub. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Yolumuz Heydər yoludur.Bu yol Vətənə doğrudur" adlı rəsm müsabiqəsində "həvəsləndirici yerə" layiq görülüb və "Diplom"la təltif edilmişdir. O, rəsm dərnəyinə getməklə fırçası ilə al-əlvan boyalarla möcüzəvi tablolar, əsərlər yaradır. Çədiyi şəkillərə baxarkən onun çox yaradıcı ruha malik olduğunun şahidi olduq. Lalənin həyatda idealı Leonarda Da Vinçidir. Lalə asudə vaxtlarını da rəsm çəkməklə, musiqi dinləməklə və bədii əsərlər oxumaqla keçirir. Lalənin ən böyük arzusu dahi rəssam olmaqdır.

Ona hər zaman maddi və mənəvi dəstək olan ailəsi onunla hər zaman fəxr edir və inanırlar ki, onun uğurları bundan da çox olacaq. Lalənin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Mehtiyev Samir İvan oğlu 1978-ci ilin 21 yanvarında Bakı şəhərində anadan olub, orta təhsillidir. Hazırda 23 nömrəli təmir tikinti idarəsində qaynaqçı işləyir.

Anası Mehtiyeva Gülşən Əli qızı 1986-cı ilin avqustun 22-də Ağdam rayonunun Güllücə kəndində anadan olub, orta təhsillidir. Hazırda evdar xanımdır.

Qardaşı Mehtiyev Əli Samir oğlu 2004-cü ilin noyabrın 15-də Ağdam rayonunun Güllücə kəndində anadan olub. Hazırda 9-cu sinifdə oxuyur.

Biz də kollektivimiz adından Lalə balamıza uğurlar arzulayırıq. Gələcəyin dahi rəssamı olmasını, ailəsinin başını hər zaman uca etməsini diləyirik.












ları arasında fərqləndiyinə görə "Təltifnamə" ilə mükafatlandırılmışdır. Asudə vaxtlarını fiziki yorğunluğunu aradan qaldırmaq üçün idmanla məşğul olmaqla keçirir. O, idmanla məşğul olmağın bir neçə faydalarını qeyd edərək əhval-ruhiyyəni yüksəltdiyini də bildirib. Gələcək yolunu da indidən seçən Elcanın arzusu Polis Akademiyasına daxil olmaqdır. Polis olmaq nə qədər ağır olsa da, şərəfli bir peşədir. Polis ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması üzrə dəqiq təşkil edilmiş mərkəzləşdirilmiş mühafizə sistemi olmaqla, daim vətəndaşların hüquq və mühafizə sisteminin etibarlı müdafiə edilməsinə yönəldilib.Elcanın uğurlarına sevinən, ona daim dəstək olan onun ailəsidir. Elcanın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Qarayev Elgün 14 fevral 1989-cu ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda polis şöbəsində işləyir. Gözəl ailə başçısı olan Elgün bəyin ən böyük arzusu gələcəkdə oğlunu polis kimi görməkdir.

Anası Qarayeva Nərgiz 26 mart 1989-cu ildə Bərdə şəhərində anadan olub. Hal-hazırda Bərdə şəhər Mərkəzi Xəstəxanasının qadın məsləhətxanası şöbəsində tibb bacısı işləyir. Hər bir ana kimi Nərgiz xanım da övladlarının təlim-tərbiyəsi ilə yaxından maraqlandığını, başqalarının əməyinə qiymət verməyi, gələcəyə ümidlə baxmağı öyrədir.

Bacısı Qarazadə Şəhla Elgün qızı 23 oktyabr 2015-ci ildə Bərdə şəhərində anadan olub. Hazırda bağçaya gedir. Qardaşına baxıb ondan çox şeyi öyrənir.

Kollektivimiz adından Elcan balamıza gələcək həyatında uğurlar arzulayırıq. Onun üçün əziyyət çəkən valideynlərinin, müəllimlərinin başını hər zaman uca edəcəyinə ümid bəsləyirik.






# QARAZADƏ ELCAN





**Doğma dilim sən ki varsan dünyada,**
**Mən də varam! Söyləməyə haqlıyam.**
**Anam! Ana dilim! Ana Vətənim!**
**Mən bütün qəlbimlə sizə bağlıyam.**

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan, həmçinin inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, mükəmməl təhsil almasında, dünyagörüşünün genişlənməsində, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, onlarla ünsiyyət qurmağa da imkan yaradır. Dil cəmiyyətin ən dəyərli sərvətidir. Hər bir xalqın inkişafı, həyat mübarizəsi onun dili ilə bağlıdır. Belə ki, hər bir xalq öz tarixini milli-mənəvi dəyərlərini, adət-ənənəsini gələcək nəsillərə məhz dil vasitəsi ilə çatdırır.

Dilimizin inkişafında, onun uşaqlara sevdirilməsində kitabların, şeirlərin və sayı-hesabı olmayan əsərlərin böyük rolu vardır. Doğma dilini sevən, onu zənginləşdirmək üçün daim kitablar oxuyan şagirdlərimizdən biri də Qarazadə Elcan Elgün oğludur.

Qarazadə Elcan Elgün oğlu 4 sentyabr 2011-ci ildə Bərdə şəhərində anadan olub. 2017-ci ildə Bərdə şəhər Zərifə Əliyeva adına texniki təmayüllü məktəb liseyinin 1-ci sinfinə daxil olub. Hal-hazırda həmin liseyin 2"b" sinifində oxuyaraq, təhsilini uğurla davam etdirir. Azyaşlı olmasına baxmayaraq, sinfin fəal şagirdləri içərisinə daxil olan Elcan savadı və bacarığı ilə həmişə yüksək qiymətlər alıb. Bütün fənlərə məsuliyyətlə və diqqətlə yanaşsa da, ən sevdiyi fənn Azərbaycan dilidir. O, bildirib ki, Azərbaycan dili bizim üçün müqəddəs dildir, dilimizi inkişaf etdirib yaşatmaq özümüzü yaşatmaqdır, tariximizi yaşatmaqdır. Dilimiz bizim qeyrətimizdir. Sevimli müəllimi olan Heyran müəllimin onun qəlbində xüsusi yeri var. Məhz onun elm yolunda inamla addımlamasına ən yaxşı dəstəkçisi və motivasiya mənbəyi Heyran müəllimdir. Elcanın təhsil sahəsində ən böyük uğuru 2018-ci ildə olub. Bərdə hazırlıq kursunun təşkil etdiyi sınaq imtahanında həmyaşıd-






# MURADLI AYDIN




**”Az bilən bildiyinin doğruluğundan əmin ola bilər, bilgi artıqca şühhə də artar. Təkcə bilik azdır, onu tətbiq etmək və fəaliyyət göstəmək lazımdır”**

**(Höte)**

Müasir informasiya şəraitində müəllimi xarakterizə edən əsas keyfiyyətlərdən biri İKT-nin tətbiqi ilə bağlıdır. Hazırda ölkəmizdə təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli addımlar atılmaqdadır. Elektron məktəblər yaranır, elektron tədris resursları hazırlanır. Hər bir müəllim çalışmalıdır ki, İKT-dən tədris prosesində səmərəli istifadə etməklə tədrisin keyfiyyətini yüksəltsin. Axı müasir dünyada savadlılıq anlayışı həm də İKT sahəsində bacarıqları özündə ehtiva edir.

Jurnalımızın bu sayının qəhrəmanı öz fitri istedadı ilə fərqlənən Muradlı Aydın Hicran oğludur.

Muradlı Aydın Hicran oğlu 10 iyun 2003-cü ildə Bakı şəhərində Binə südçülük savxozu qəsəbəsində anadan olub. 2009-cu ildə Bakı şəhər 218 nömrəli tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 9-cu sinifə qədər təhsili həmin məktəbdə davam etdirmiş və hazırda B.Ç.Səfərəliyev adına Pircahan kənd tam orta məktəbində 10-cu sinifdə oxuyaraq öz təhsilini davam etdirir. Aydın həmçinin 24 nömrəli 11 illik musiqi









məktəbində musiqi təhsili alır.Ağıllı və çalışqan olan Aydının sevimli fənni Azərbaycan dili, rus dili və musiqidir. Bü gün Aydının təhsil aldığı məktəbin müəllimləri öz savadına, peşəkarlığına və tədris etdikləri dərslərin keyfiyyətlərinə görə fərqlənirlər. Könül və Pərvanə adlı müəllimlər də belə müəllimlər sırasına daxildir. Həm təhsil, həm də musiqi ilə bağlı uğurlarına gəldikdə isə Aydın balamızın kiçik yaşlarında qazandığı belə uğurları saysız hesabsızdır. İlk uğuru 5-ci sinifdə olub. Məktəb tədbirlərində aktiv iştirak etdiyinə görə "Təşəkkürnamə" ilə təltif edilmiş. 2016-cı ildə musiqi təhsilindəki uğuruna görə "Respublika laureantı" adını almışdır. 2016-cı ilin mart ayında 24 saylı 11 illik musiqi məktəbində həm məktəb tədbirlərində, həm də məktəbdən kənar tədbirlərində yüksək səviyyəli çıxışına görə "Fəxri Fərman"la təltif edilmişdir. 2018-ci ildə 24 nömrəli 11 illik musiqi məktəbində nağara ixtisası üzrə keçirilən tədbirlərdə fəal iştirakına görə "Fəxri Fərman"la tətif olunmuşdur.2019-cu ildə 24 nömrəli 11 illik musiqi məktəbində "İnci instrumental ansambılında" fəal iştirakına görə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Fəxri Fərman" la təltif edilmişdir. Asudə vaxtlarını da musiqiyə ayıran Aydının ən böyük arzusu musiqiçi olmaq və bu sahə üzrə nailiyyətlərini daha da artırmaq istəyidir. Hobbisi zərb musiqi alətlərində ifa etmək və film izləməkdir. Həyatda idealı ailəsi, valideynləridir.Aydının uğurlarına sevinən, ona hər zaman həm maddi, həm də mənəvi cəhətdən dəstək olan ailəsi onun bu nailiyyətlərinə sevinir və ümid edirlər ki, uğurları gələcəkdə sadalananlardan da çox olacaq. Aydının ailəsi 3 nəfərdən ibarətdir.

Atası Muradov Hicran Əlizadə oğlu 9 aprel 1979-cu ildə Bakı şəhərində anadan olub.Hazırda musiqi ilə məşğul olan Hicran bəy zərb musiqi alətlərində peşəkar ifa qabiliyyətinə malikdir. Bir ata kimi Hicran bəy oğlu ilə fəxr edir və onu daha yüksək yerlərdə görmək arzusundadır.

Anası Muradova Kəmalə Almaz qızı 24 fevral 1984-cü ildə Bakı şəhərində anadan olub.Hazırda Bakı şəhər 84 saylı bağçada müəllim işləyir.

Bacısı Muradlı Aytən Hicran qızı 14 iyul 2001-ci ildə Bakı şəhərində anadan olub. Hazırda Pedoqoji Kollecdə məktəbəqədər təhsildə korreksiyaedici təlim fakultəsində 1-ci kursda oxuyur.

Kollektivimiz adından musiqiyə bütün qəlbi ilə bağlı olan Aydın balamıza uğurlar arzulayırıq. Gələcək nailiyyətlərinin bundan da çox olmasını, milli musiqi sənətimizin yaşadılmasında müstəsna xidmətləri olacaq parlaq nümayəndələrindən olmasını diləyirik.



TƏŞƏKKÜRNAMƏ

218 saylı tam orta məktəbin direktoru: ƏLİYEVA Natavan
218 saylı tam orta məktəbin təşkilatçısı: İSALI Kamran



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Bakı şəhər Mədəniyyət Baş İdarəsi
24 nömrəli Onbirillik Musiqi Məktəbi

FƏXRİ FƏRMAN

Məktəb tədbirlərində fəal iştirakına görə
"İnci"instrumental ansamblında fəal iştirakına görə
nağara ixtisası üzrə IX sinif şagirdi
Muradlı Aydın Hicran oğlu
təltif edilir.

24 nömrəli Onbirillik Musiqi Məktəbinin direktoru — Samirə İsayeva

Bakı 2019







fənləri və başda direktorları olmaq üzrə müəllimlərinin hamısını çox sevdiyini deyir Nərmin. Nərminin anasını təsvir etməsi isə ona olan sevgisinin bağlılığının sübutu oldu məncə "Mənim anam çox dadlı yeməklər bişirir"-deyərək daim onun dadlı yeməklərini ağız dadı ilə zövq alaraq yediyini bildirdi. Bir övladın anası haqqında sevgisini həm bu qədər uşaqcasına, həm də bu qədər dolu -dolu ürəkdən deməyinə təsirlənməmək mümkün deyildi. O, həm də anasından şücaətli və dözümlü olmağı da öyrənib. Anasına olan saf və sağlam sevgisi ilə Nərmin sübut etdi ki, hər zaman onun əziyyətini və dəyərini yüksək qiymətləndirir, özünə ideal olaraq seçdiyi güclü xanımlardan hesab edir. Deyirlər nənəli, babalı ailədə böyümüş uşaqlar zəngin dünyagörüşə və xəyal dünyasına malik olur və bu üstünlük həm də onların gələcək həyatındakı mövqeyində də özünü hiss etdirir. Və Nərmin bala da sevimli nənə və babası ilə birgə yaşayan xoşbəxt nəvələrdəndir desək yanılmarıq. 62 yaşlı baba Vəliyev Bahatur Hüseyn oğlu və 59 yaşlı nənə Piriyeva Aynisə Soltan qızı ilə birgə yaşamaq xoşbəxtliyi Nərminə nəsib olmaqla yanaşı, həm də ömrünün 39 ilini Bərdənin Xanağalı kəndində ibtidai sinif müəllimi olaraq fəaliyyət göstərən Aynisə nənədən bir təcrübəli pedaqoq olaraq ədəb və elm öyrənməklə ikiqat təhsilini artırmış olur. Nərmin ailədə övlad olaraq tək deyil, onun Nəriman adında bir igid qardaşı var ki, o da 2001-ci ilin iyunun 29-da anadan olub və hazırda Göyçay Dövlət İdarəetmə Texnologiya kollecində 2-ci kurs tələbədir. O da bacısını bacısı onu sevdiyi qədər çox istəyir və qarşılıqlı olaraq bacısına bildiyi elm, təhsil adına məlumatları ötürməkdə öz köməkliyini əsirgəmir. Hər zaman onun arxasında hiss edən Nərmin qardaşı ilə qürur duyur və çalışır ki, onun kimi o da mütləq təhsil alıb gələcəyini uğurlu qursun, ailəsinə dəstək olsun. Çünki uğurlu gələcək yüksək ali savad, sağlam əqidə və inamlı məqsəd əsasında qurulur. Bu şüarı onlara hər zaman diqtə edən anaları Vəliyeva Şəlalə Bahatur qızı da oxumağın insan həyatı üçün ən vacib fakt olduğunu deyir və övladlarının daim təhsil yolu ilə getmələrinə çalışır. 1983-cü ilin noyabrın 27-də dünyaya göz açan Şəlalə xanım özü orta təhsilli olsa da savadlı və dünyagörüşü olan bir anadır, ziyalı bir ailənin yetirməsidir, elmin, təhsilin hikmətinə bələddir.Bir ömrünü övladlarına fəda edən ana üçün onların həyatının uğurlu və sağlam olmasından üstün güclü bir istək olmayacağını bildirən Şəlalə ana da Nəriman və Nərminin təhsili üçün çalışır və hər zaman onların uğurlu gələcəyi üçün planlarını qurur. O, övladlarına həm ata, həm ana, həm böyük, həm də dost olub. İki övladın bütün məsuliyyətlərini özü çəkir, özü layiqli şəkildə yerinə yetirir. Hansı peşəni seçməsindən asılı olmayaraq qoy həyatda öz layiqli mövqe və yerlərini tutmağı, daim təhsilə və elmə önəm verməyi, əqidə və vicdanlarına sahib çıxmağı arzu edən Şəlalə xanım üçün onların yaxşı sədalarından üstün heç nə ola bilməz.

"Çağdaş Təhsil" jurnalının kollektivi adından biz də Nərminə və onun ailəsinə uğurlar diləyir və ən xoş arzularımızı bildiririk. Təsəvvürlərimiz oxuduğumuzla ölçüldüyündən qoy Nərminin də oxuduqları hər zaman onun xəyal və real dünyasını təsəvvür etdiyimizdən də artıq zəngin və uğurlu etsin. Hər zaman nailiyyətləri və xoş sədaları ilə doğmalarının, anasının və müəllimlərinin fəxri, qüruru olsun!

İnanırıq ki, anasının duaları və özünün qətiyyəti və əzmkarlığı ilə daima uğura və irəliyə doğru addımlayacaq Nərmin.